# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Tarixi Zəfərimizin başlanğıcı - Aprel döyüşləri**



4

SƏS
№ 054 (7222)
4 aprel 2025-ci il.
Qiyməti 60 qəpik

# Azərbaycan-İran münasibətlərində səmərəli əməkdaşlıq



2

# Qərbdə olmayan SÖZ AZADLIĞI




3

**Genetik kodlarımızı pozan bəla**



6

**Məzuniyyət günlərinin pulu necə hesablanır?**



5

**Niyə abituriyentlər xaricdə təhsilə daha çox üstünlük verir?**



8

**Azərbaycanın üzləşdiyi mina təhlükəsi**



10

**BİZİMLƏ: süfrədə, işdə, yolda, hamamda, yataqda...**



7

# Azərbaycan-İran
## münasibətlərində səmərəli əməkdaşlıq



***Suverənliyini və ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın bir çox dövlətlərlə münasibətlərinin daha da dərinləşməsi, yeni strateji səviyyəyə çatdırılması üçün böyük əhəmiyyət kəsb edən qərar, sənədlər qəbul edilib, layihələr reallaşıb ki, bu da dövlətlərarası əlaqələrin sürətlə inkişafına təkan verib. Əlbəttə ki, Azərbaycanla İran arasında münasibətlər təkcə qonşuluq bağları deyil, tarixi kök bağlılığıdır. Hər iki xalqın dili, ədəbiyyatı, adət-ənənələri və mətbəxi arasında oxşarlıqlar mövcuddur. Bu mədəni yaxınlıq ikitərəfli diplomatik əlaqələrin inkişafında mühüm rol oynamışdır.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığı iki ölkə arasında əlaqələrin möhkəmliyinə əsaslanır. Məsud Pezeşkian müqəddəs Ramazan bayramı münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib, ən xoş arzularını çatdırıb. Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində İran Prezidentini və xalqını bayram münasibətilə təbrik edib. Telefon danışığı əsnasında ölkələrimiz arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin dinamikasından məmnunluq ifadə olunub, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunulub, iqtisadi, ticarət, nəqliyyat, enerji və digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayini qəbul edib. Ölkəmizə daha əvvəllər də səfər etdiyini xatırlayan qonaq Azərbaycanın davamlı inkişafının şahidi olduğunu bildirib. Mehdi Sənayi İranın qonşu dövlətlərlə, xüsusilə tarixi, dini, mədəni bağlılığı olan Azərbaycan ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini vurğulayıb. Hazırda ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişafından məmnunluğunu bildirib. Dövlətimizin başçısı da öz növbəsində Azərbaycanın və İranın ortaq dəyərləri bölüşdüyünü qeyd edərək, son dövrlərdə ikitərəfli qarşılıqlı səfərlərin dinamikasını müsbət qiymətləndirib.

Prezident İlham Əliyev Mehdi Sənayinin Azərbaycana səfərinin ikitərəfli gündəliklə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvarlığını ifadə edib. Görüşdə ölkələrimiz arasında nəqliyyat, xüsusilə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair müzakirələr aparılıb, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunulub.

Söhbət zamanı Ağbənd istiqamətində Araz çayı üzərində körpünün tikintisi prosesi ilə bağlı fikir mübadiləsi aparılıb.

### İKİ ÖLKƏ ARASINDA TARİXİ HADİSƏ

Məlumdur ki, Azərbaycan və İran arasında müxtəlif sahələri əhatə edən əlaqələr mövcuddur. Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasiminin keçirilməsi iki ölkə arasında tarixi bir hadisəyə çevrildi. Ölkələrimiz arasında mehriban qonşuluq, qardaşlıq və dostluq münasibətlərinin inkişafını təmin edən siyasətin töhfəsi olaraq uzun illərdir fəaliyyət göstərən Araz, Mil-Muğan su anbarları və Araz Su Elektrik Stansiyasından sonra Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları layihəsinin həyata keçirilməsi Azərbaycan və İran arasında səmərəli əməkdaşlığa töhfədir.

Ən əhəmiyyətli layihələrdən biri də Azərbaycan-İran sərhədində yerləşən "Xudafərin" və "Qız qalası" hidroelektrik kompleksləri həm enerji təchizatına, həm də kənd təsərrüfatı suvarma sistemlərinin inkişafına güclü stimul verir. Prezident İlham Əliyev açılış mərasimində İran-Azərbaycan münasibətlərinin sarsılmaz olduğunu vurğulayaraq demişdir ki, İran-Azərbaycan birliyi və dostluğu sarsılmazdır. Heç kim bizim aramıza nifaq sala bilməz.

### UZUNMÜDDƏTLİ ƏMƏKDAŞLIĞA KÖRPÜ

Vurğulamaq yerinə düşər ki, "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılışı hər iki xalq və dövlət üçün çox əhəmiyyət kəsb edən bir layihənin icrasıdır. Bu su bəndini inşa edən mühəndislər dünya səviyyəsində tanınmış mühəndislərdir. Çünki İran dünyada su bəndi tikmək sahəsində ilk dördlüyə daxil olan ölkələrdən biridir. Araz su bəndinin inşasından 50 il sonra bu bəndin tikilməsi ölkələrimiz arasında əlaqələri inkişafında önəmlidir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bunun Arazın iki sahilini birləşdirən gözəl bir rəmzi layihə olduğunu bildirərək, suvarma, içməli su təchizatı üçün, eyni zamanda, elektrik enerjisinin istehsalı məqsədilə gələcəkdə inşa ediləcək elektrik stansiyalarının fəaliyyətinin nəticəsində də çox böyük faydalar olacağını və bu, bölgələrə qayıdacaq insanlar üçün böyük bir üstünlük verəcəyini qeyd edib.

Qeyd edək ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası dövlət sərhədində - Araz çayı üzərində inşa edilən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları elektrik enerjisi istehsalı və suvarma məqsədilə tikilib. Hidroqovşaqların layihələri Sovet İttifaqı ilə İran arasında 1977-ci ilin oktyabrında imzalanan razılaşma əsasında hazırlanıb. Layihələri 1990-cı illərin əvvəllərində yenidən işlənilən hidroqovşaqların tikintisi Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilməsi nəticəsində dayandırılsa da, sonrakı dövrlərdə tikinti işləri yalnız İran İslam Respublikası tərəfindən aparılıb.

Bu layihələr, "yaşıl enerji" sahəsində ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni perspektivlər vəd edir. "Xudafərin" və "Qız Qalası" ölkələrimiz üçün ekoloji, enerji, iqtisadi əhəmiyyət daşıyan infrastruktur layihələri olmaqla bərabər, bölgədə inkişafa, təhlükəsizliyə, dostluğa xidmət edən uzunmüddətli əməkdaşlıq körpüsüdür.

### "GƏLƏCƏKDƏ DƏ YAŞADIĞIMIZ BÖLGƏDƏ SÜLH, ƏMİN-AMANLIQ, SABİTLİK OLMALIDIR"

Azərbaycan-İran arasında bir çox sahələrdə əlaqələr mövcuddur ki, bu da həm ölkələri gücləndirir, eyni zamanda, regional əməkdaşlığa müsbət təsirini göstərir. "Ticarət dövriyyəsinin artırılması, yeni birgə müəssisələrin yaradılması - bütün bunlar göz qabağındadır. Təbii ki, bütün planları həyata keçirmək üçün gələcəkdə də yaşadığımız bölgədə sülh, əmin-amanlıq, sabitlik olmalıdır", - deyən Prezident bildirib ki, bölgədə sülhün və əmin-amanlığın carçısı olan Azərbaycan sülhsevər siyasətini uğurla reallaşdırır. İran Azərbaycanın yaxın qonşusudur və ölkəmiz bölgənin istisnasız olaraq bütün dövlətləri kimi, İranla da səmərəli əməkdaşlığı davam etdirməkdə maraqlıdır.

Bu gün Azərbaycan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında aparıcı dövlətlərdən biridir. Azərbaycan və İranın strateji əməkdaşlığında Şimal-Cənub Nəqliyyat Dəhlizi çərçivəsində həyata keçirilən layihələr önəmli yer tutur. Bu dəhliz Avropa ilə Asiya arasında ən qısa və səmərəli tranzit yoludur. Dəmir və avtomobil yolları, liman infrastrukturlarının modernləşdirilməsi, həm iqtisadiyyatın şaxələndirilməsinə, həm də beynəlxalq ticarətin həcminin artmasına şərait yaradır. Asiya ilə Avropanı birləşdirən bu dəhlizə daxil olan avtomobil, dəmir yolları Azərbaycan və İran ərazisindən keçir. Bu isə İran ilə Azərbaycanın beynəlxalq yükdaşımalarda tranzit potensialını və rolunu artırır. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Avropanın 800 milyona yaxın əhalinin yaşadığı 40-dan çox ölkəsi ilə 2 milyarddan çox əhalisi olan Cənub Şərqi Asiya ölkələrini birləşdirir. Dəhlizin əsasını təkli edən Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu xəttinin Qəzvin-Rəşt hissəsi artıq istismara verilib. Layihə çərçivəsində Azərbaycan tərəfi üzərinə düşən vəzifələri yerinə yetirib.

### "ÖLKƏLƏRİMİZ ARASINDAKI MÜNASİBƏTLƏR, XALQLARIMIZIN ORTAQ TARİXİ, DİNİ VƏ MƏDƏNİ DƏYƏRLƏRİNDƏN QAYNAQLANARAQ MÖHKƏMLƏNİR"

Azərbaycan-İran münasibətlərində iqtisadi və strateji əməkdaşlıq sahəsində də mühüm inkişaf mərhələsi yaranıb. Son illərdə hər iki ölkə ticarət, nəqliyyat və energetika sahəsində əməkdaşlığı gücləndirərək yeni imkanlar əldə etmişdir. Hazırda Azərbaycan və İran arasında iqtisadi-ticari əlaqələr dinamizmlə inkişaf edir. Azərbaycanın İranla tarixi-mədəni bağları gələcəkdə bu əməkdaşlığın daha da güclənməsinə töhfə verəcək.

İran İslam Respublikası ilə münasibətlər iqtisadi və strateji əməkdaşlıqla məhdudlaşmır, əsrlər boyu davam edən tarixi, mədəni və dini yaxınlıqla daha da möhkəmlənir. Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi: "Biz Azərbaycan ilə İran arasında dövlətlərarası əlaqələrin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Ölkələrimiz arasındakı münasibətlər, xalqlarımızın ortaq tarixi, dini və mədəni dəyərlərindən qaynaqlanaraq möhkəmlənir". Bu yanaşma iki ölkənin həm coğrafi, həm də mənəvi baxımdan bağlı olduğunu əks etdirir.

***Zümrüd BAYRAMOVA***

# Qərbdə olmayan SÖZ AZADLIĞI

Cinayətkarlar onları cinayətkar adlandıranlardan hər zaman yaxa qurtarmağa çalışırlar. Ələlxüsus da belə bir ”xüsusiyyət” Qərb üçün xarakterikdir. Yəni, Qərb özünü dırnaqarası da olsa, ”sivilizasiya ocağı” kimi göstərməyə nə qədər çalışsa da, reallıqlar tamamilə fərqlidir və görünən odur ki, nə qədər söz azadlığından dəm vurulsa da, Qərbdə azad sözə nə məhəl qoyulmur, nə də heç ümumiyyətlə, hesaba da alınmır. Əksinə, belə məlum olur ki, azad sözü elə yerindəcə ”boğmaq” ön planda durur, hansıki bunu təsdiq edən kifayət qədər faktlar var və belə faktlar, ələlxüsus da jurnalistlərə qarşı terrora əl atılması dünya ictimaiyyəti üçün heç də gizli qalmır...




## ”Hədəf” lap əvvəlcədən müəyyən olunubsa, özü də məhz televiziya şirkətinə məxsus avtomobil seçilibsə, deməli, hər şey bəllidir

Diqqətə çatdıraq ki, bu ilin 24 mart tarixində Luqansk Xalq Respublikasında ”Zvezda” televiziya şirkətinə məxsus avtomobilə Amerika Birləşmiş Ştatlarının istehsalı olan iki uzaqmənzilli raket atılıb. Belə bir ”həmlə” faciə ilə nəticələnib. Beləki, raket zərbəsi nəticəsində operator Panov və sürücü Sirkeli həlak olub, müxbir Qoldin isə ağır yaralanıb. Maraqlıdır, belə bir faciəyə Qərb indi hansı ”donu” geyindirmək fikrindədir? Yaxud, televiziya şirkətinə məxsus avtomobili ”nişan almaq” necə və hansı əsasla ”izah” oluna bilər? Ümumiyyətlə, bunun izahı ola bilərmi? Hər halda, televiziya şirkətinə məxsus avtomobilin ”hədəfə” alınması diqqətdən yayına bilməz və bunun arxasında nələrin olduğu kifayət qədər düşündürücüdür.

Əvvəla, belə bir hədəfin seçilməsi olduqca böyük maraq doğurur. Niyə məhz ”Zvezda” televiziya şirkətinə məxsus avtomobil hədəfə alınıb? Məqsəd və niyyət nə olub? Axı, hər halda, bu ”atış” səbəbsiz ola bilməz. Həm də, artıq hamı çox yaxşı bilir ki, bu cür raketlərin hədəfləri məhz onları istehsal edən ölkənin kəşfiyyatı tərəfindən lap əvvəlcədən müəyyən edilir. Bu faktı siyasətçilər, politoloqlar özləri də tam çılpaqlığı ilə ifadə edirlər. Lap elə açıq mətnlə də bunu bildirirlər. Qalır bircə dənə etiraf etmək. Amma çətin ki, həmin o uzaqmənzilli iki raketi atanlar belə bir etiraf edələr. Əslində, heç bir etirafa da ehtiyac yoxdur. Əgər raketlərin atılması nəticəsində faciə baş veribsə, özü də məhz televiziya şirkətinə məxsus avtomobildə ”qurbanlar” olublarsa, hansısa bir etirafın olub-olmamasına qətiyyən ehtiyac duyulmur, çünki onsuz da hər şey bəllidir.

## Bütün dünya ölkələrinə söz azadlığı ilə bağlı az qala ”öhdəçilik” qoyan Qərb üçün səbəbkarı olduğu jurnalist ölümləri heç də ”təsirli” olmayıb

Xatırlatmaq yerinə düşərdi ki, ”İzvestiya”nın Krımdan olan müxbiri, hərbi jurnalist Fedorçak da eyni şəkildə hədəf olaraq seçilib və bu səbəbdən də həlak olub. Doğrudur, Krımın rəhbəri Aksyonov onu ölümündən sonra ”vəzifəyə sədaqətinə görə” respublika ordeni ilə təltif edib. Hətta, Simferopol teleqülləsinin işıqlandırmasında Fedorçakın portreti təsvir olunub və onun ölümü ilə bağlı mesaj da yer alıb. Amma nə portret, nə də mesaj görünür, kimlər üçünsə zərrə qədər də təsirli olmayıb. Hər halda, təsirli olmuş olsa idi, bunu kimsə ”duyar”, kimsə bununla bağlı hansısa formada ən azından ”tədbirli” olardı. Məsələ burasındadır ki, hələ də həmin hadisə sanki, adi hal kimi qəbul edilir və barəsində düşünmək belə istəyən yoxdur.

Görünən odur ki, Qərb jurnalistlərə tamamilə sayqısız yanaşır və sonra da utanmadan, qızarmadan söz azadlığından dəm vurur. Ən acınacaqlısı odur ki, ən xırda cəza tədbiri belə görülməyib. Heç tədbir gürüləcəyinə ümidin belə olması da müşahidə edilmir. Maraqlıdır, niyə və nəyə görə bu qədər ölüm hadisəsinə səbəb olan ”hücumlar” barədə Qərbdə düşünən yoxdur? Özü də məhz jurnalistlərin hədəfə alınması ”daha ciddi yanaşma” tələb etdiyi halda, heç nə olmamış kimi davranılır və elə təəccüb doğuran da budur. Yəni, Qərb ümumiyyətlə, azad söz barədə eşitmək belə istəmirmi? Yoxsa, söz azadlığı dedikləri ancaq başqalarına aiddir? Belə məlum olur ki, bütün dünya ölkələrinə söz azadlığı ilə bağlı az qala ”öhdəçilik” qoyan Qərb üçün səbəbkarı olduğu jurnalist ölümləri heç də ”təsirli” olmayıb.

## İnformasiya məkanını ”təmizləmək” üçün həyata keçirilən dırnaqarası ”sistemli, planlı iş”, informasiya məkanına hücum

Açıq və aydın şəkildə görünür ki, terrorçular hər yerdə jurnalistləri hədəfə alıblar və bir növ ”ovlamaqla” məşğuldurlar. Faktlar kifayət qədər çoxdur və günü-gündən də artır. Amma həmin faktlara görə cavab vermək ”istəyi” azalmaqdadır. Xatırladaq ki, martın 26-da Belqorod vilayətində Birinci Kanalın hərbi müxbiri Prokofyeva ukraynalı yaraqlılar tərəfindən yerləşdirilmiş minaya düşərək həlak olub, operator Volkov isə ağır yaralanıb. Bəli, Rusiya İstintaq Komitəsi ”terrorçuluq” maddəsi ilə cinayət işi açıb. Mütəxəssislər açıq şəkildə bildirirlər və əmindirlər ki, hərbi müxbir Prokofyeva terrorçuların jurnalistlərə qarşı etdikləri ”ov” hədəfi, qurbanı olub.

Təbii ki, Rusiya rəsmilərinin buna münasibət bildirməsi də gözlənilən idi. ”Bu, sadəcə olaraq, lazım olan hücum deyil, deyək ki, bu günlərdə Ər-Riyadda təmaslar və danışıqlar prosesi ilə bağlı həyata keçirilən digər hücumlar kimi, eyni ilə Kiyev rejiminin informasiya məkanını təmizləmək üçün həyata keçirdiyi sistemli, planlı işdir”, deyə Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Zaxarova bəyan edib. Bəli, açıq şəkildə bəyan edilib ki, bu, informasiya məkanını təmizləmək üçün həyata keçirilən ”sistemli və planlı işdir”. Deməli, tam əminliklə bildirilir ki, bu, informasiya məkanına hücumdur. Bir qədər öncə qeyd etdiyimiz kimi, siyasətçimlərin, politoloqların, eləcə də mütəxəssislərin rəyinə görə, raketlərin hədəfləri məhz onları istehsal edən ölkənin kəşfiyyatı tərəfindən lap əvvəlcədən müəyyən edilirsə, deməli, Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova tamamilə haqlıdır.

## Jurnalistlərin ”hədəf” olaraq seçilməsi, informasiya məkanına hücum məhz söz azadlığının Qərbdə olmaması qənaətinə əsas verir

Heç şübhəsiz ki, hətta terrorçuları cəlb edənlər də artıq öz cinayətlərini tamamilə görməməzlikdən gələ bilməzlər. Əvvəla, ona görə ki, faktlar kifayət qədər çoxdur və reallıqlar da göz önündədir. Digər tərəfdən də axı bu qədər cinayətləri görməməzliyə vurmaq absurddur. Xüsusən də, edilən cinayətlər məhz jurnalistlərə qarşı edilirsə, əksini fərz etmək belə mümkün deyil. Çünki mətbuat məhz zamanın güzgüsüdür və jurnalistlər də cəmiyyətdə olan bütün məsələləri məhz özləri işıqlandırırlar. Belə olan halda, hansı gizli addımdan söhbət gedə bilər və buna nə dərəcədə nail olunacağı qənaəti yarana bilər? Azad sözə qarşı atılan addımların cavabsız qalacağını düşünənlər yanılırlar. Qərb özündə olmayan söz azadlığına görə cavab verməli olacaq. Jurnalistlərin ”hədəf” olaraq seçilməsi, informasiya məkanına hücum məhz söz azadlığının Qərbdə olmaması qənaətinə əsas verir.

Diqqətə çatdıraq ki, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, yəni, ATƏT-in Mətbuat Azadlığı üzrə nümayəndəsi terrora məruz qalan, buna görə də həyatını itirən jurnalistlərin yaxınlarına və yaralananlara başsağlığı verib, amma hələ buna görə cavab verilməyib. ”Hər bir mülki şəxsin ölümü, o cümlədən bir jurnalistin ölümü faciədir. Mən bir daha jurnalistlərin azad və təhlükəsiz öz işlərini yerinə yetirmələri üçün ATƏT-in öhdəliklərinə əməl etməyə çağırıram”, deyə ATƏT-in Mətbuat Azadlığı üzrə nümayəndəsi bildirib. Maraqlıdır, o kimə çağırış edir? Niyə birbaşa ”ünvanı” göstərmir? Ümumiyyətlə, nə üçün ancaq ”faciədən” danışır və nəyə görə cinayətdən danışmır? Nə üçün buna cinayət demir? Axı, həqiqətən də çinayətdir. Özlərini elə göstərirlər ki, guya başa düşmürlər. Axı bütün bunlar söz azadlığına qarşıdır və görəsən etiraf etmək istəmirlərmi ki, jurnalistlərə edilən ”hücumlar” məhz Qərbdə olmayan söz azadlığı səbəbindədir və azad sözə imkan verilmədiyinin, qarşısının alınması cəhdlərinin təzahürüdür.

***İnam Hacıyev***

# Tarixi Zəfərimizin başlanğıcı - Aprel döyüşləri

## Prezident İlham Əliyev: "2016-cı ildə aprel döyüşlərində düşmənə dərs verdik"



2016-cı il aprelin 1-dən 2-nə keçən gecə. Həmin zamandan 9 il ötür. Bu, aprel döyüşləri kimi tarixiləşdi. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş hərbi münaqişə Aprel döyüşləri Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan sonra ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu. 5 apreldə hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalandı. Buna baxmayaraq, Ermənistan tərəfindən dəstəklənən seperatçı qüvvələr atəşkəs imzalanmazdan bir neçə saat sonra onu dəfələrlə pozmuşdur. Azərbaycan Respublikasının verdiyi rəsmi məlumata görə Azərbaycan Silahlı Qüvvələri 2,000 hektarlıq ərazini azad etmişdir. Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı da baş tutmadı. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı.

### DÜŞMƏNƏ GÖSTƏRİLƏN SİYASİ İRADƏ VƏ GÜC

Azərbaycan ordusu hələ Aprel döyüşlərində öz gücünü düşmənə göstərə bilmişdir. 2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı.

Hadisələrin gedişinə nəzər salsaq görərik ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalıb. Bunun nəticəsində dinc sakinlərdən 2-si ölüb, 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Cəbhənin ən gərgin Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində yerləşən birliklər, artilleriya bölmələri və digər qoşun növlərinin birgə, əlaqəli fəaliyyəti nəticəsində qısa müddətdə Ermənistan silahlı bölmələrinə qarşı cavab tədbirləri həyata keçirib. Ermənistan silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 və 120 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəsi 127 dəfə pozub. Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndi atəşə tutulub. Habelə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndi, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonu ərazisindəki yüksəkliklər vurulub. Talış kəndində olmuş "Kommersant" qəzetinin müxbirinin sözlərinə görə, Azərbaycan hərbçilərinin qrupu Talışa girsə də, orada möhkəmlənə bilmədilər. Azərbaycan Ordusunun şanlı tarixində mühüm yerlərdən birini tutan 2016-cı ilin Aprel döyüşləri artıq düşmənə Azərbaycanın gücünü göstərmişdir.

Aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur. Aprel döyüşləri zamanı 2 min hektar ərazi işğaldan azad edilib. Aprel döyüşlərində Ermənistana məxsus 30-dək tank, 320 döyüşçü məhv edilmiş və 500-dən artıq döyüşçüsü yaralanıb.

Bu müddət ərzində Ermənistan tərəfi Ermənistan və Azərbaycan silahlı qüvvələrinin təmas xətti boyunca sıx məskunlaşmış ərazilərdə yaşayan, aralarında qadınlar, uşaqlar və ahıllarin da olduğu qeyri-döyüşçü mülki əhaliyə qarşı qəsdən, sistematik və hədəflənən hücumlar edib. 32 yaşayış məntəqəsinin bombalanması nəticəsində aralarında 16 yaşdan kiçik 2 uşaq olmaqla 6 mülki şəxs həlak olub, 26 şəxs ağır yaralanıb. Hücumlar nəticəsində həmçinin çoxsaylı ictimai və şəxsi mülkiyyətə, o cümlədən mülki infrastrukturlara ciddi ziyan dəyib. 232 fərdi yaşayış evi, 99 elektrik dirəyi, 3 elektrik yarımstansiyası, kilometrlərlə su və qaz boruları dağıdılıb. Məktəblər, xəstəxanalar və ibadət yerləri də daxil olmaqla sosial müəssisələrə Ermənistan silahlı qüvvələri tərəfindən idarə olunan raket zərbələri endirilib. 1 məscid ibadət zamanı yüksək kalibrli artilleriya mərmiləri ilə vurulub.

2016-cı il aprelin 19-da Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılıb.

"2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik"- deyən Cənab Prezident 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürüldüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir.

26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı. Ümumilikdə, 11 min hektara yaxın ərazi düşməndən azad edilib. Bu ərazinin isə 8 min hektardan çoxu əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı ərazilərdir.

### ZAMAN YETİŞDİ...

ZƏFƏR qazanmış xalq olaraq hərbi gücümüzü dünyaya göstərə bildik. Tariximizi yazmaqla dünya hərb tarixinə də yeni bir səhifə açdıq. 30 ilə yaxın işğal dövründə Azərbaycan hər zaman bu qisası almağa, ucadan-uca üçrəngli Azərbaycan bayrağını vətən torpağı üzərində məğrur-məğrur dalğalanacağı günün lap yaxında olduğunu yaxşı bilirdi. Vətən torpağına axıdılan şəhid qanının, qoca, qadın və uşaqların qışın sərt sızağında, yayın istisində el-obasından didərgin düşməsinin qisasının alınacağı günü səbirsizliklə gözləyirdi igid oğullarımız. Müstəqilliyimizin rəmzi, bütövlüyümüzün, varlığımızın simvolu olan Bayrağımızı o yerlərdə dalğalandırmağa hər kəs tələsirdi. Zaman yetişdi. Siyasi gücə, iradəyə malik Böyük Lider, Azərbaycan Prezidenti İlham Əliyevin Sərkərdəlik məharəti Azərbaycan xalqını Müzəffər xalq kimi dünyaya tanıtdı, ZƏFƏR qazanmış xalq olaraq hərbi gücümüzü dünyaya göstərə bildik. Tariximizi yazmaqla dünya hərb tarixinə də yeni bir səhifə açdıq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 gün davam edən müharibənin gedişində möhtəşəm qələbələr qazanaraq dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimiz döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz ordu" mifini darmadağın etdi.

### "QİSAS" CAVAB ƏMƏLİYYATI

Yaxın keçmişimizdə aldığı zərbələri yaddan çıxarmışdılar. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəalarını kobud surətdə pozaraq 2022-ci ilin avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərdilər. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürdü. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı.

Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması əlbəttə ki, ölkəmizin növbəti uğurudur. Azərbaycanın apardığı antiterror tədbirləri lokal xarakterli idi və Ordumuzun qarşısına mülki obyektlərə, insanlara zərər yetirilməməsi vəzifəsi qoyulmuşdu. Qarabağın relyefi dağlıq olduğundan və qeyri-qanuni erməni silahlıları uzun müddət yüksəkliklərdə möhkəmləndiyindən antiterror tədbirlərinin aparılması heç də asan məsələ deyildi. Ordumuz verilən tapşırığa əsasən ancaq legitim hərbi hədəfləri zərərsizləşdirdi və bu, humanistliyə görə dünyada aparılan ən nümunəvi antiterror tədbiri olaraq tarixə düşdü. 2023-cü ilin sentyabrın 19-da başlayan və təqribən 24 saat davam edən lokal antiterror tədbirləri Azərbaycan tarixinin şanlı səhifələrindəndir. Vətən müharibəsindəki tarixi Qələbəmizdən və Ermənistanın kapitulyasiyasından sonra Azərbaycan dövləti humanizm göstərərək ölkəmizin erməni əhalisi ilə reinteqrasiya prosesinə start verdi. Vətən müharibəsində qəhrəmanlıq göstərən Azərbaycan Ordusu bu dəfə də yüksək peşəkarlıq nümayiş etdirərək Ali Baş Komandanın onların qarşısında qoyduğu tapşırığı cəmi 24 saatda yerinə yetirdi. Nəticə olaraq separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. "Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz". - deyə Prezident bildirib.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam - intizama malik bir quruma çevrilib.

İkinci Qarabağ müharibəsinin nəticəsi Qafqazın yeni geosiyasi vəziyyətinin formalaşmasında mühüm mərhələ oldu. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb. Bu gün vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayanır. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgisini bir daha göstərmiş oldu. Öz iradəsi, gücü ilə. Bu gün də vətən oğulları Ali baş Komandanın əmrinə, vətənin müdafiəsinə hər an hazırdırlar. Bu gün Azərbaycan qalib dövlətdir. Torpaqlarını işğaldan azad edilən qalib xalqdır.

Bu gün hər bir azərbaycanlı Lələtəpədə ucaldılan üçrəngli bayrağımızın artıq işğaldan azad edilən Şuşada və digər ərazilərimizdə dalğalanmasından qürur duyurlar. Bu qüruru bizə yaşadan Müzəffər Ali Baş Komandan və Rəşadətli Azərbaycan Ordusudur.

*Nəzakət ƏLƏDDINQIZI*

# Aleksey Fenenko: ”Ermənistan sərhəddə təxribatlar təşkil edir ki...”

**Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Fenenko ”Moskva-Baku” portalına müsahibəsində İrəvanın Rusiya ilə təmasları gücləndirmək niyyətini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Aleksey Valeriyeviç, erməni KİV-ləri yazır ki, Nikol Paşinyan Rusiya ilə müxtəlif sahələrdə təmasları intensivləşdirməyi əmr edib, özü isə mayın 9-da Moskvada keçiriləcək Qələbə Paradında iştirak edəcək. İrəvanın qərbyönlü kursuna bir növ yenidən baxmasından və Rusiya Federasiyası ilə münasibətləri yaxşılaşdırmaq cəhdlərindən danışmaq olarmı?***

- Xeyr, İrəvanın Qərbə istiqaməti dəyişməz olaraq qalır. Nikol Paşinyan sadəcə olaraq anladı ki, nə ABŞ, nə Avropa, xüsusən də Fransa, nə də NATO Ermənistana bundan sonra yardım etməyəcək, Azərbaycan və Türkiyə ilə Ermənistan baş nazirinin ümid bəslədiyi ciddi çəkişmələrə getməyəcəklər. Trampın rəhbərliyi altında ABŞ-ın Ermənistana yardım etməyəcəyi bəlli olduqdan sonra Paşinyan yenidən Rusiyanın Ermənistan üçün mühüm tərəfdaş olduğunu iddia etməli oldu. ”Qərblə heç bir nəticə vermədi, ona görə də Rusiya Federasiyası ilə yenidən cəhd edəcəyəm, bəlkə də mənim xeyrimə nəsə olacaq” məntiqi ilə. Eyni zamanda, o, əvvəlki kimi Vaşinqton və Brüsseldəki tərəfdaşlarını şantaj etmək istəyir- deyir ki, əgər mənə kömək etməsən, mən yenidən Rusiyaya tərəf dönəcəyəm. Bu, Paşinyanın səciyyəvi taktikasıdır, harada daha çox təklif edirlər orada işləmək. Buna görə də Paşinyan hər şeyi əldən verməmək üçün Rusiyaya qarşı demarşında bir az geriləmələr etmək qərarına gəldi. Üstəlik, baş nazir Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyünün



onun rifahı üçün vacibliyini anlayır.

***- Sizcə, Aİ Ermənistana kömək etməyəcək, çünki artıq aydındır ki, Aİ-nin bir çox ölkələri və hətta Aİ rəsmiləri Trampın siyasətinə müqavimət göstərməyə, necə deyərlər, öz xəttini əyməyə və ABŞ prezidentinin "xoşuna gəlməyən" hər şeyi "götürməyə" çalışırlar.***

- Yaxşı, Avropa İttifaqı həqiqətən nə edə bilər? Ola bilsin, Paşinyana dəstək üçün hansısa bəyanat qəbul edib, onun çiyninə vura bilərlər- bəli, deyərlər ki, o, yaxşı adamdır. Amma düşünmürəm ki, Aİ Trampı maraqlandırmayan Ermənistanı ”alacaq”. Avropa İttifaqı düzgün vəziyyətdə deyil, Ukraynadakı müharibə ilə məşğuldur. Və Aİ-nin hərbi-sənaye kompleksini yenidən işə salmaq niyyətində olduğu bir şəraitdə Ermənistan üçün Aİ-də, o cümlədən Fransada real vəsait qalmayacaq. Bundan başqa, Avropadan gələn hərbi təchizatın maddi-texniki təminatında problem var.

Dünən Almaniya prezidenti Ştaynmayer Ermənistana gəlib. Nə üçün? Ermənistanda Ştaynmayer şübhəsiz ki, İrəvanın anti-Rusiya istəklərini və Aİ-yə doğru hərəkətini dəstəkləməyə çalışıb. Respublikanın KTMT-dən çıxması NATO üçün vacibdir. Ya Ermənistan özü təşkilatı tərk edəcək, ya da Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına daxil olan ölkələr respublikanın bu strukturu sabotaj etməsindən yorulacaq və onu üzvlükdən çıxaracaqlar. İrəvanın Ermənistanın 2 il ərzində KTMT-yə olan haqlarını və borclarını ödəmək niyyətində olmadığı barədə bəyanatına əsasən aydın olur ki, Ermənistan Respublikası vəziyyəti gərginləşdirməyə çalışır. O, sözün əsl mənasında KTMT-dən çıxarılmasını xahiş edir. Paşinyan gözləyir ki, nə istəsə, Qərb minnətdarlıq hissi ilə onun üçün edəcək. Amma məsələ də odur ki, Qərb belə düşünmür.

Yeri gəlmişkən, Ştaynmayer Ermənistana səfəri ilə bağlı rəsmi sosial şəbəkə səhifəsində Qarabağ separatçılarının bayrağının dərc edilməsi artıq Azərbaycan tərəfindən qalmaqala və mənfi reaksiyaya səbəb olub. Almaniya səfiri Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə çağırılıb.

Bundan əlavə, Ermənistanın bir həftəyə yaxın Azərbaycan mövqelərini necə atəşə tutduğunu, Azərbaycana növbəti dəfə təxribatla cavab verməyə çalışdığını gördük. Cavab olarsa, NATO-ya qaçaraq "Bizə kömək edin, Rusiya bizi tərk etdi, hamı bizə xəyanət etdi, kiçik demokratik Ermənistana kömək edin!”-deyə qışqıracaqlar. Deməli, bütün bu atəşlər açıq-aşkar təxribatdır.

Odur ki, bütün yuxarıda deyilənləri nəzərə alaraq, Nikol Paşinyan ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı ayaqlarını sürüyür, həm də Aİ-nin Ermənistan-Azərbaycan sərhədindəki missiyasının ”mülki” xarakterindən danışır.

Paşinyan qonşuları ilə nə qədər sülhdən danışsa da, yenə də Qarabağın qisasını hesablayır. Və ona ordunu yenidən silahlandırmağı təklif edən hər kəsə xidmət etməyə hazırdır. Ermənistanda hələ də güclü millətçilik hissləri var.

***- Bu yaxınlarda Ermənistan parlamenti ölkənin Aİ-yə daxil olması prosesinin başlanması ilə bağlı qanun layihəsini təsdiqləyib. Bununla belə, respublikanın hələlik Avropa İttifaqına üzvlük üçün müraciət etmək niyyətində olmadığı açıqlanıb. Bu nə cür oyundur?***

- Avropa İttifaqı Ermənistanı qəbul etməyəcək. Yaxşı, Aİ bunu hətta sırf texniki baxımdan necə qəbul edə bilər?! Nə bir ümumi sərhəd, nə də bir dəniz rabitə xətti var. Ermənistan kasıb ölkədir və ona milyardlarla avro sərmayə qoyulmalıdır. Mineral ehtiyatları yoxdur. Ermənistanı ilhaq etmək Aİ-nin öz üzərinə inanılmaz yük götürməsi demək olardı. Üstəlik, Türkiyə və Azərbaycanın belə bir çağırışa necə reaksiya verəcəyi məlum deyil. Ona görə də Paşinyan ermənilərə deyə bilməz ki, mənim Qərbə doğru kursum iflasa uğrayıb, ona görə də cəmiyyətin reaksiyasını izləyib bu istiqamətdə ehtiyatlı addımlar atır.

***Tərcümə - Elçin***



## *AYDINLIQ GƏTİRİLDİ*

# Məzuniyyət günlərinin pulu necə hesablanır?

”Məzuniyyət vaxtı üçün ödənilən orta əmək haqqı onun hansı iş ili üçün verilməsindən asılı olmayaraq məzuniyyətin verildiyi aydan əvvəlki 12 təqvim ayının orta əmək haqqına əsasən müəyyən edilir”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyin sədri Fariz Əkbərov deyib.

Fariz Əkbərov sözlərinə belə davam edib: ”Məzuniyyət haqqını hesablamaq üçün ilk növbədə orta əməkhaqqını tapmaq lazımdır. Əmək Məcəlləsinin 140-cı maddəsində (Məzuniyyət vaxtı üçün orta əməkhaqqının hesablanması qaydası və ödənilməsi) qeyd edilmişdir. 12 təqvim ayından az işləyib məzuniyyətə çıxan işçinin orta aylıq əmək haqqı onun faktik işlədiyi tam təqvim aylarına əsasən hesablanır. Məzuniyyət günlərinin əmək haqqını müəyyən etməkdən ötrü məzuniyyətdən əvvəlki 12 təqvim ayının əmək haqqının cəmlənmiş məbləğini 12-yə bölməklə orta aylıq əmək haqqının məbləği tapılır və alınan məbləği ayın təqvim günlərinin orta illik miqdarına - 30,4-ə bölmək yolu ilə bir günlük əmək haqqının məbləği müəyyən edilir. Bu qayda ilə müəyyən edilmiş bir günlük əmək haqqının məbləği məzuniyyətin müddətinin təqvim günlərinin sayına vurulur.

Məzuniyyət vaxtı üçün ödənilən orta əmək haqqı hesablanarkən əməyin ödənilməsinin qüvvədə olan sisteminə daxil olmayan birdəfəlik ödənişlər istisna edilməklə əmək haqqı anlayışına daxil olan bütün növ ödəmələr nəzərə alınır.



Məzuniyyət vaxtı üçün orta əmək haqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin geniş siyahısı, habelə məzuniyyət vaxtı üçün orta əmək haqqının əmsallaşdırılması qaydası Nazirlər Kabinetinin 25.08.1999-cu il tarixli 137 saylı Məzuniyyət vaxtı üçün orta əmək haqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin aşağıdakı geniş siyahısı ilə müəyyən edilir.

Nəzərə alınan ödənişlər:

- faktiki işlənmiş vaxtı üzrə tarif (vəzifə) maaşı;

- müəssisə, idarə və təşkilatlarda qüvvədə olan əməyin ödənilməsi sistemləri üzrə ödənilən mükafatlar;

- Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 774 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə”də nəzərdə tutulan kollektiv və fərdi mükafatlar;

- kompensasiya və həvəsləndirici xarakter daşıyan daimi əlavələr (zərərli

- əmək şəraitində, gecə vaxtı, çoxnövbəli rejimli işə, peşələrin (vəzifələrin) əvəz edilməsi, elmi dərəcəyə, fəxri ada, qulluq stajına, xidmət illərinə, ixtisas dərəcəsinə, hakimiyyət səlahiyyətlərinin icrasına, xüsusi rütbə maaşına (əlavəsinə) görə və s.);

- uşağın yedizdirilməsi üçün ayrılmış fasilələrin ödənilməsi;

- səhra, susuz və yüksək dağlıq yerlərdə əmsallar üzrə əlavə ödənişlər;

- iş vaxtından artıq iş saatlarının ödənilməsi;

- İstirahət, iş günü hesab edilməyən bayram və ümumxalq hüzn günlərində işə görə ödənilmə;

- işçinin təqsiri olmadan zay (yararsız) sayılan məhsulun istehsalına, boşdayanmaya, hasilat normalarına yerinə yetirmədiyinə, soyuq və isti havalar şəraitində fasilələrə və işin dayandırılmasına görə ödəmələr;

- müvəqqəti əvəzetməyə görə ödəmə; qanunvericilikdə işçilərin iş yerlərinin və orta əmək haqqının saxlanıldığı, əvvəlki əmək haqqı ilə yeni iş yerindəki əmək haqqı arasındakı fərq ödənildiyi və əvvəlki vəzifəsi (peşəsi) üzrə əmək haqqı saxlanıldığı hallarda;

- məcburi işburaxma dövrünün ödənilməsi;

- əmək, təhsil və yaradıcılıq məzuniyyəti dövründə saxlanılan orta əmək haqqı;

- əmək qabiliyyətini müvəqqəti itirməyə , hamiləliyə və doğuma görə müavinətlər;

- qəzet, jurnal, nəşriyyat, radio və televiziya, informasiya agentlərinin ştatlarında olan əbədi işçilərə ədəbiyyat qonorarı fondlarından verilən qonorarlar, daimi xarakter daşıyan müəlliflik, artist qonorarları və quruluş haqqı.

**Nəzərə alınmayan ödənişlər:**

- birdəfəlik xarakteri daşıyan əlavə mükafatların bütün növləri, yubiley və bayram günləri, anadan olan günlər ilə bağlı və digər analoji hallarda verilən həvəsləndirici ödənclər (mükafatlar da daxil olmaqla);

- işçinin öz vəzifəsinə aid olmayan ayrı-ayrı tapşırıqların yerinə yetirilməsinə görə ödəmələr;

- əmək alətlərinin, vasitələrinin və digər əşyaların amortzasiyasına görə pul əvəzi;

- maddi yardım şəklində verilən müxtəlif növ ödənişlər;

- ezamiyyət ilə bağlı verilən ödəmələr, çöl xərcləri, daimi işi yolda olan, yaxud gediş-gəliş və ya gəzəri xarakter daşıyan işçilərə ödənilən əlavələr, bilavasitə tikintidə çalışan işçilər üçün səyyar xarakterli işə görə, işin növbə metodu ilə yerinə yetirilməsinə görə əlavələr;

- ayrı-ayrı işçilərə pulsuz verilmiş mənzil, kommunal xərclərin, yanacağın, nəqliyyatda gediş biletlərinin dəyəri və ya onların kompensasiyası;

- işçilərə verilən iş paltarlarının, iş ayaqqabılarının və başqa fərdi mühafizə vasitələrinin, sabunun, başqa yuyucu vasitələrin, südün və müalicə-profilaktika qidalarının dəyəri;

- qanunvericilikdə nəzərdə tutulmuş hallarda pulsuz qidaların dəyəri (pulsuz kollektiv yeməklər, müəssisənin mənfəətinin hesabına işçilərə pulsuz və ya güzəştli şərtlərlə verilən yeməklər);

- sanatoriya-kurort müalicəsinə və istirahət evlərinə yollayışların dəyəri;

- başqa əraziyə işə keçirildikdə və yaxud köçdükdə mənzil kirayəsi və əmlakın daşınması üzrə xərclərin ödənilməsi;

- istehsalatdan ayrılmaqla təhsil almağa göndərilmiş işçilərə müəssisə və təşkilatlar tərəfindən ödənilən təqaüdlər;

- yarış, baxış və müsabiqə qaliblərinə verilən pul mükafatları;

- gənc mütəxəssislərə ali və yaxud orta ixtisas təhsil müəssisəni qurtardıqdan sonra verilən məzuniyyət zamanı müəssisələr, idarələr, təşkilatların hesabına ödənilən müavinətlər;

- mülki-hüquqi müqavilələr üzrə işlərin yerinə yetirilməsinə görə ödəmələr;

- istifadə edilməmiş əmək məzuniyyətlərinə görə kompensasiya”.

***Ayşən Vəli***

# Genetik kodlarımızı pozan bəla

*Dünya əhalisinin 60 faizi onun əsiridir və bu məhkumluqdan məmnundur*

***Əlimizdən yerə qoymadığımız, dünənki modeli köhnə hesab edib, sabahkı modeli əldə etmək üçün pul yığaraq işbazların dəyirmanına su tökürük, xəbərimiz yoxdur. Sağlamlığımızı qurban verdiyimiz mobil telefonların yaydığı təhlükəli xəstəliklər barədə qələmə aldığımız bu yazıda fərqində olmadan verdiyimiz qurbandan və mobil telefonların təhlükəsindən bəhs edəcəyik.***




## İlk mobil cihaz

İlk mobil telefonun ixtiraçısı olan amerikalı Martin Koper olub, o Motorola şirkətinin mühəndisi idi. Mobil telefonu o 1973-cü ildə kəşf edib. Amma mobil telefonun satışa çıxarılması 10 il çəkdi, çünki mobil telefonun işləməsini təmin etmək üçün mobil şəbəkə yaradılmalı və stansiyalar inşa edilməli idi. İlk mobil aparat bir kilodan bir qədər artıq olub, 25 sm. uzunluğunda idi, cəmi 20 dəqiqə enerji saxlaya bilirdi. İxtiraçısı sonralar bu





barədə danışanda "yaxşı ki, ağırlığı baxımından onu çox əldə saxlamaq olmurdu" deyərək, mobil cihazların yaydığı xəstəliklər barədə deyilənləri təsdiqləmiş oldu.

Avropa Telekommuniyasiya Standartları Komitəsi 1982-ci ildə GSM-i, yəni "Global Sistems Mobile" şirkətini yaratdı. GSM-in mərkəzi hesab edilən Finlandiyada 1991-ci ildə ilk mobil telefon Nokia 1011 model telefon istehsalı edilir və 4000 dollara satışa çıxarılır. Beləliklə, dünya bəşəriyyətin yeni ixtirası və gələcək bəlası ilə tanış oldu. Bu illər ərzində mobil telefon çox dəyişdi, görünüşünə, çəkisinə, modelinə görə xeyli inkişaf etdi. Daha nazik, daha kiçik, daha çox enerji saxlayan, daha yaraşıqlı telefon istehsal etmək üçün istehsalçı şirkətlər indi bir-biri ilə yarışa girib.

İlk istifadəyə verilən mobil telefonların sim kartı olmurdu, telefona qeydiyyatlı olan nömrə mobil cihaza ötürülən siqnal vasitəsi ilə işləyirdi. Ölkəmizə gətirildiyi ilk vaxtlardan bu günədək mobil cihazlara maraq səngiməyib, əksinə, cəmiyyətimiz hər gün bir az da çox onun əsirinə çevrilir. Məktəbli uşaqdan təqaüdçülərədək hamımızın cibində gəzdirdiyi mobil telefon əslində sağlamlığımızı əlimizdən alır, yeni xəstəliklərin yaranmasına səbəb olur. Onların yaydığı elektromaqnit radiasiya beyin şişi, müxtəlif növ xərçəng xəstəlikləri, kişilərdə sperma sayında azalma, beyində bərpaolunmayan hüceyrələrin məhvi kimi bir çox xəstəliklər yaradır.

Məlumat üçün qeyd edək ki, hazırda mobil telefonların 70 faizi Çində istehsal edilir. Beynəlxalq təşkilatlardan birinin Çində keçirdiyi sorğu nəticəsində respondentlərin 70 faizi mobil telefonsuz yaşaya bilmədiyini, ingiltərəli gənclərin 69 faizi isə telefondan asılı olduğunu etiraf edib.

2000-ci ildə dünya əhalisinin yalnız 12 faizi mobil telefon istifadəçisi idisə indi 60 faizdən çoxu, təxminən 5 milyard insan smartfonlardan istifadə edir. Digər tərəfdən, dünya əhalisinin demək olar ki, 67 faizi ağıllı və ya olmayan istənilən növ mobil telefonuna sahibdir.

## Hamilələr və uşaqlar təhlükə altındadır

Tibb elminə görə insan beyninin inkişaf mərhələsi 25 yaşadək davam edir. Nəzərə alsaq ki, zəmanəmizin uşaqları mobil telefonla hələ ana bənindəcə tanış olurlar, 9 ay anasının sayəsində o şüalanmaya məruz qalır və doğulan kimi evdəki insanların sayı qədər mobil telefon şüası altında yaşamağa başlayır, o zaman problemin nə qədər erkən başlamasının fərqinə vararıq.

Hamiləlik dönəmində mobil telefondan istifadə məsləhət görülmür. Çünki hamiləliyin ilk 3 ayında radiasiya daha təhlükəli olaraq uşaqsalmalara belə səbəb ola bilər, orqanizm güclü olub yarımçıq hamiləliyin qarşısını aldığı təqdirdə isə körpələrdə radiasiyanın mənfi təsirləri qalır.

Mobil telefon istifadəsinə görə dünya ölkələri arasında ən yüksək pillələrdə qərarlaşan Rusiyadakı telefon sevgisi alimləri narahat edib və bir-birinin dalınca araşdırmalar aparırlar. Rus alimlər mobil telefon istifadə edən 5-12 yaş arası uşaqlar üzərində 5 illik bir araşdırmanı yekunlaşdıranda məlum oldu ki, nəticələr olduqca narahatlıq doğurandır. Mobil telefon istifadə edən uşaqların beyin inkişafında axsama müşahidə edilib, habelə onların məlumatları qavramasında gerilik, diqqət dağınıqlığı, əsrimizin bəlası hesab edilən autizm kimi xəstəliklərə düçar olması da məlum olub.

Amerikalı və danimarkalı alimlər 1990-cı illərin sonunda doğulmuş olan 13 min uşağı araşdırdıqdan sonra təyin etdilər ki, hamiləlik zamanı gündə 2-3 dəfə mobil telefon istifadə edərkən doğulan uşaqda davranış pozuqluğu ehtimalı 54 faiz yüksəlir. Risk, uşaq mobil telefonla 7 yaşından əvvəl tanış olsa 80 faizə qədər yüksəlir. Ətraf aləmi ilə uyğunlaşma problemi 49, hiperaktivlik vəziyyəti 35, yoldaşları ilə problemli ünsiyyət qurma vəziyyəti 34, habelə ruhi-psixoloji baxımdan problemli olması nisbəti 25 faiz artır. Rəqəmlər qorxuludur, deyilmi?

## 3 radiasiya növündən biri mobil telefondur

Radiasiya ilə adətən, 3 formada qarşılaşırıq, bunlardan biri diş və ağciyər rentgeni zamanı olur, ikinci xərçəng xəstəliyinin müalicəsi zamanı kimyaterapiyaya məruz qalanda olur, üçüncü radiasiya qarşılaşması isə mobil telefon, internet, tv, mikrodalğalı sobalar və bu kimi cihazlardır.

Beynəlxalq Xərçəng Araşdırma Agentliyi (IARC) isə çoxdan mobil telefonların və onların stansiyalarının yaydığı şüaların yaratdığı elektromaqnit sahələri təhlükəli elan edərək kanserogen ehtiva edən 2-B qrupuna daxil edib. Bu səbəbdən də inkişaf etmiş ölkələrdə mobil stansiyaların qüllələrinin olduğu yerlərdə yaşayış məntəqələri olmur.

Mobil telefonun ilk 24 saatda orqanizmə verdiyi zərərləri sıralasaq - görmə problemləri, ürək narahatlığı, yaddaş pozğunluğu və beyin şişi yaratma ehtimalı, güclü stress və yorğunluq, eşitmə problemləri, qulaqlarda küy, diqqət dağınıqlığı, yarımçıq hamiləlik, qan hüceyrələrinin balansının pozulması, baş ağrıları və gicəllənməsi, immunitet sisteminin pozulması kimi problemləri yaza bilərik.

Əgər siz 10 ildir mobil telefondan istifadə edirsinizsə o zaman indi sadalayacaqlarımız elə sizə də aiddir. Yüksək təzyiq, genetik strukturun pozulması, kişilərdə sperma sayının azalması, ağ qan xərçəngi, dəri xərçəngi, qan dövranının pozulması. Həkimlər deyir ki, hər gün yarım saat mobil telefonla danışmaq sizi 10 il içində xərçəngin ən ağır formasına yoluxdura bilər. Gündə 1 saat mobil telefonla danışmaq bu müddəti 5 ilə endirir.

## Özümüzü necə qorumalı?

Ekspertlər avtomobil idarə edərkən telefonla danışmağı qətiyyətlə qadağan edir. Belə ki, telefona cavab verən sürücü həm danışığa diqqətini yönəldərək yola nəzarəti itirir, həm də telefonun yaydığı radiasiya sayəsində operativ qərar qəbul etmə, çətin situasiyadan asanlıqla çıxma, manevr etmə qabiliyyətlərini itirir. Araşdırmalara görə mobil telefon ən çox gecələr zərərlidir, ona görə də çalışın yuxulu ikən telefonla danışmayın, yaxşı olar ki, gecələr mobil cihazınızı bağlayasınız. Mobil telefonunu gecələr balışının altına qoyub yatanlar isə beyin xərçənginin ən birinci qurbanları siyahısına liderlik edir.

Nəzərə alın ki, telefona zəng daxil olan zaman şüalanma 50 faiz çoxalır. Məhz buna görə telefonu bədəninizə yaxın yerdə saxlamayın, əl çantanızda, iş masanızda saxlasanız radiasiyadan bir qədər qurtulmaq mümkündür. Son illər kişilərdə sonsuzluğun artmasına bir səbəb kimi də mobil telefonlar göstərilir. Belə ki, kişilər adətən telefonu şalvar cibində saxladığı üçün sperm sayında azalma olur. Qadınlar telefonu adətən çantada saxladığı üçün radiasiyadan nisbətən qorunmuş olur. Yol gedərkən mobil telefondan istifadə məsləhət görülmür, çünki hər dəfə ötürücü stansiya dəyişdikcə bədənə 50 dəfə çox enerji yüklənir.

***PS: Dünyanın rabitə nəhənglərindən olan AT&T üçün işləyəndə mobil telefonunun sağlamlığa heç bir zərərini olmadığını deyən məşhur professor Georgi Karlo işdən çıxandan sonra qələmə aldığı məqaləsində deyir: "Laboratoriyada aparılan təcrübələr nəticəsində öyrəndik ki, mobil telefon radiasiyası insanın genetik kodlarını pozur"...***

***Lalə Mehralı***

# ”Səfər dövlətlərin milli maraqlarına uyğundur və gələcək uğurlara təkan verəcək”

## KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ



”Azərbaycan-Almaniya əlaqələrinin tarixi çox qədəmdir. 200 il bundan əvvəl yaradılan iqtisadi əlaqələr bu gün yüksələn xətt üzrə inkişaf edir. Azərbaycan əməkdaşlığın möhkəmləndirilməsində, münasibətlərin yaxşılaşdırılmasında, Avropanın ən inkişaf etmiş ölkələrindən biri kimi Almaniya ilə tərəfdaşlığı dostluq və beynəlxalq normalar çərçivəsində davam etdirməkdə maraqlıdır”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Si-



yasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri vurğulayıb ki, Almaniya da Azərbaycanı Cənubi Qafqazda vacib bir tərəfdaş kimi qəbul edir, onun regiondakı liderlik mövqeyini, sülhə, əminamanlığa dəstək vermәsini qiymətləndirir, dövlətimizin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. ”Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Almaniya Prezidenti Frank - Valter Ştaynmayerin mətbuata bəyanatlarında iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsinə böyük önəm verilmiş, münasibətlərin daha da yaxşılaşdırılmasının vacibliyi qeyd edilmişdir. Rusiyadan qaz təchizatı dayandığı zaman Azərbaycanın Almaniyaya kömək göstərməsi, infrastrukturun genişləndirilməsi sahəsində atılan addımlar, ticarət əlaqələrinin genişləndirilməsi barədə fikirlərini bildirən və buna görə Azərbaycan Prezidentinə təşəkkürünü ifadə edən, ölkəmizdə baş verən dəyişiklikləri yüksək qiymətləndirən Almaniya Prezidenti bildirmişdir ki, Azərbaycan inkişaf edərək mühüm məkana çevrilib və buradan olduqca vacib ticarət yolları keçir, öz növbəsində həmin amil dünyanın birləşməsinə əsas ola bilər.

Azərbaycandan keçən yollar əlbəttə dünya əhəmiyyətlidir. Qeyd edildiyi kimi, ölkəmizdən keçən yollar, eləcədə Orta dəhlizin rolu alman iqtisadiyyatı üçün çox vacibdir və bu qeyd edildiyi kimi, yaxşı perspektivdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev öz çıxışında iqtisadi-ticari əlaqələrinin möhkəmləndirilməsi ilə bərabər, Ermənistanın işğalçılıq siyasətini bir daha diqqət mərkəzinə çəkmiş və sülh müqaviləsinin tezliklə imzalanmasının vacibliyini qeyd etmişdir.

Almaniya Prezidenti dövlətimizin rəhbərinin sülh təşəbbüsünə tərəfdar olduğunu bildirərək qeyd etmişdir ki, bu sülh prosesinin çox böyük əhəmiyyəti var. Son bir il ərzində çox böyük addımlar atılıb, çox böyük irəliləyişlər olub. Almaniya Prezidentinin Azərbaycana səfəri ölkələr arasında əlaqələrin inkişafında yeni bir mərhələdir, dövlətlərin milli maraqlarına uyğundur və gələcək uğurlara təkan verəcəkdir”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# “Bunlar ”Böyük Qayıdış” planının tərkib hissəsidir”




## MÜNASİBƏT

”İkinci Qarabağ müharibəsində əldə edilən tarixi Zəfərdən sonra Azərbaycan dövləti prioritet istiqamət olaraq əsas işini işğaldan azad edilmiş ərazilərin bərpası və məcburi köçkün düşən bacı və qardaşlarımızın öz doğma ata-baba yurdlarına qayıdışı istiqamətində quruculuq işlərinə start verdi”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elçin Abdullayev deyib.

O bildirib ki, ən vacibi də odur ki, bu quruculuq işləri ”Böyük Qayıdış”a dair dövlət proqramı çərçivəsində həyata keçirilir: ”Hansı ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 16 noyabr 2022-ci il tarixli Sərəncam imzalamışdı. Sərəncama uyğun olaraq bu işlər həyata keçirilməkdədir. Görülən işlərin miqyası o qədər böyükdür ki, sadalamaqla bitməz. Azad edilən ərazilərdə müasir infrastrukturların



qurulması istiqamətində görülən işlərdən biri Zəfər yoludur. Digəri Beynəlxalq Hava Limanının açılmasıdır. Bundan başqa məktəblər, bağçalar, hətta su elektrik stansiyasına kimi Azərbaycan dövləti bu işləri həyata keçirib. Bunlar ”Böyük Qayıdış” planının tərkib hissəsidir.

”Böyük Qayıdış” çərçivəsində məcburi köçkünlərin bir qisminin artıq ata-baba yurdlarına qayıdışı təmin olunub. Bu günə qədər Füzuli rayonuna 300-dən çox ailə köçürülüb. Eyni zamanda Laçın rayonuna köçürülüb. Şərqi Zəngəzurun Zəngilan rayonunda, Ağalı kəndində artıq 100-dən yuxarı ailə yaşayır. Bunlar 2025-2026-cı illərdə də davam etdiriləcək. Çünki Azərbaycan dövləti artıq 2025-ci ildə işğaldan azad edilmiş torpaqlarımızın bərpa və quruculuq işləri istiqamətində 4 milyard manat məbləğində vəsaitin ayrılmasından söhbət gedirsə, bu 2026-cı ildə davam etdiriləcək. Düşünürəm ki, görülən bu işlər həm də Azərbaycan dövlətinin iqtisadi gücünün göstəricisi olmaqla yanaşı eyni zamanda Azərbaycan dövlətinin bu işə nə qədər önəm verdiyini və nə qədər iddialı olduğunu ortaya qoyur. Bu da ondan xəbər verir ki, 30 ilə ata-baba yurdlarından didərgin düşmüş vətəndaşlarımızın doğma yurdlarına qayıdışı yaxın bir neçə il ərzində tam olaraq təmin olunacaq”.

***Söylü Ağazadə***


MƏTANƏT

# BİZİMLƏ: süfrədə, işdə, yolda, hamamda, yataqda...

**1973-cü ilin 3 aprelində ”telefonun atası” adlandırılan 85 yaşlı Martin Kuper ilk dəfə olaraq mobil telefonla zəng etdiyini elan edib. Telefon yalnız danışıq məqsədi ilə yaradıldığı üçün burada 12 düymə (10-rəqəmlər, 2-zənglərin yönləndirilməsi və dayandırılması) mövcud idi.**

Bəli, bu, mobil telefon yaradılanda idi. Harada qaldı o günlər? O günlərdən hansı günlərə gəlib çıxdıq? O günlərə ki, indi mobil telefon həyatımızın bir parçasıdır, biz onsuz yaşaya bilmərik, ölərik. Yemək yeyəndə gözümüz ondadır, nə yediyimizi bilmirik, işdə ağlımız onun yanındadır, özümüzü toplaya bilmirik. Yolda əlimizdədir, bizi başı aşağı edib, hər gün bəlkə onlarla insanla toqquşuruq. Hamamda çiməndə də yanımızdadır, ya muqiqi dinləyir, ya film izləyir, ya da aradabir sulu əllərimizlə mesaj yazır, səs göndərir, nə bilim, nə edirik. Gecələr isə yataqda bizimlədir, əvvəllər çarpayımızın yaxınlığına qoyardıq, sonralar bir-birimizi elə sevdik ki, indi artıq ayrı qala bilmirik. O,əlimizdə yuxulayırıq. Və yaxud da telefon ya yastığımızın, böyrəyimizin altındadır, ya ürəyimizin üstündədir, ya da əlimizdəcə dərin yuxulara gedirik.

Rəqəmsal Qlobal Xülasə Hesabatına əsasən, mobil telefondan istifadə hər il artır. 2015-ci ildə dünya əhalisinin 4,15 milyardı, yəni 57 faizi cib telefonundan istifadə etdiyi halda, 2019-cu ildə bu nisbət 53 milyon artaraq 4,68 milyarda, yəni 62 faizə çatıb. 2020-ci ildə bu rəqəm 4,78 milyarda çatıb. Bu gün isə ümumilikdə 5,44 milyard insanın bir mobil telefonu var. Beləliklə, dünya əhalisinin 68 faizindən çoxu telefondan bəhrələnir.

2023-cü il Rəqəmsal Qlobal Xülasə Hesabatına görə cib telefonu sahibləri onunla gündə orta hesabla 5 saat vaxt keçirirlər. Təbii ki, söhbət gündüzdən gedir. Hələ telefon sahiblərinin gecələr onunla bir yatağı bölüşməsini bir kənara qoyuruq...

Azərbaycanda 2020-ci ildə 10 milyon 344,3 min nəfər olub, nüfuz dərəcəsi isə 104% təşkil edib. 2021-ci ilin göstəricisinə bu, 4,6% artaraq 10 milyon 817,1 min nəfər təşkil edib. 2021-ci ilin sonuna əhalinin hər 100 nəfərinə 108 mobil telefon abunəçisi düşüb ki, bu da bir il öncəki göstəricini 4 nəfər üstələyib.

Qeyd edək ki, 2022-ci ildə isə ölkəmizdə mobil telefon abunəçilərinin sayı 11 milyon 068,1 min nəfər olub. Əhalinin hər 100 nəfərinə 110 mobil telefon abunəçisi düşüb ki, bu da əvvəlki göstəricini 2 nəfər üstələyir.

Kaliforniyanın Səhiyyə Departamentinin əməkdaşları xəbərdarlıq ediblər ki, insanlar yuxu zamanı smartfonları özlərindən ən azı bir əl məsafəsində saxlamalıdırlar. Qeyd edilir ki, mobil telefonlarda şüalanma dozası, hansını ki, insan yuxu ərzində alır, xərçəng və sonsuzluğun inkişafı riskini əhəmiyyətli dərəcədə artıra bilər.

Gün ərzində ümumilikdə 35-40 dəqiqədən artıq mobil telefondan istifadə etmək orqanizmə aşırı dərəcədə ziyan vurur; mobil telefonla çox danışmaq eşitmə sinirlərini korlayır; çox SMS yazmaq barmaqlarda keyiməyə səbəb olur; saatlarla oyun oynamaq gözdə qızartılar və quruluq əmələ gətirr, boyunda və beldə müəyyən müddətdən sonra ağrılar yaranır; diqqət dağınıqlığına səbəb olur; çox danışanda beyin hüceyrələrinin bir qismi ölür; dalğaları qan hüceyrələrinə mənfi təsir edir; mobil telefonlar hətta saç köklərinə də pis təsir göstərir.

Nə üçün insan övladı onun xeyrinə olanların əksinə gedir, bu, hələ də bəşəriyyətə məlum deyil. Lakin düşünəndə ki, bir zamanlar deyilənləri eşitməyib, zərərini çox görmüşük, onda bu gün deyilənləri də eşitməyənlərin bir neçə il sonra çəkəcəyi zərər göz önünə gəlir.

Biz nə qədər az eşidiriksə, mobil telefonların vaxtsız ölümə səbəb olmasından da xəbərsiz qalacağıq. Onlarla bir süfrədə, işdə, yolda, hamamda, yataqda yan-yana olmaqla sağlamlığımızı, həyatımızı, gələcək nəsilləri qurban verdiyimizi anlamağın vaxtı çoxdan çatıb. Lakin biz bu məsələnin dərk edilməsində hələlik yerimizdə sayırıq. Yerimizdə sayırıqsa, deməli, anlamağımıza hələ xeyli var...

# Niyə abituriyentlər xaricdə təhsilə daha çox üstünlük verir?

***Ali təhsil almaq hər bir insanın həyatında mühüm rola malikdir. Şəxsin bilik və bacarıqlarının təkmilləşməsində, şəxsiyyətinin formalaşmasında və dünya görüşünün artmasında son dərəcə vacibdir. Həvəsli olduğu ixtisas üzrə professionallaşmaq üçün isə ali təhsil almaq çox önəmlidir. Bununla bərabər universitet həyatı gəncin sosiallaşmasında, yeni təcrübələr əldə etməsində, yeni mühitlərə adaptasiya olmasında vacib rol oynayır. Hər bir gənc isə illərini sərf edəcək universitet həyatında yüksək keyfiyyətli təhsil almaq istəyir.***



## Ali təhsil

Ali təhsil elm, texnika və mədəniyyətin müasir nailiyyətlərindən yaradıcı şəkildə istifadə etməklə hazırlıq yönümlü nəzəri və əməli məsələlərin həllinə imkan verən sistemləşdirilmiş bilik və təcrübi vərdişlərin məcmusudur. Ali təhsil termini ali təhsil müəssisələrində elm və mədəniyyətin müxtəlif sahələri üçün yüksək ixtisaslı kadrlar hazırlanması mənasında da işlədilir; 2)ümumi təhsil və elmi-siyasi bilik verən ən yüksək təhsil.





Üç pilləli təhsil sitemində orta təhsil və orta ixtisas təhsilindən sonra gələn ali ixtisas təhsilidir. Məzuna ixtisası üzrə nəzəri və peşəkar biliklər verir. Orta təhsildən fərqli olaraq ali təhsil ümumi təhsil sayılmır və iddiaçılar müsabiqə əsaında daha az sayda yerə qəbul edilir.

## Azərbaycanda bakalavr təhsili

Azərbaycanda bu təhsil pilləsinə aparan proqram 1991-cı ildə Xəzər Universiteti tərəfindən hazırlanmış və həyata keçirilməyə başlanılmışdır. 1993-cü il qəbul edilən təhsil qanunu bakalavr və magistr dərəcələrini ali təhsilin uyğun olaraq birinci və ikinci pillləsi kimi qanuniləşdirmişdir. Azərbaycanda bakalavr üzrə təhsil müddəti 4 ildir. Bakalavr dərəcəsi magistraturaya daxil olmaq hüququ verir.

## Dünyada bakalavr təhsili

Ayrı-ayrı dövlətlərdə və ixtisas istiqamətlərində baklavr hazırlığı bir-birindən fərqlənir və 3 - 6 il arası təşkil edir. Məsələn, İngiltərədə və Almaniyada 3, Şotlandiya, Kanada və ABŞ-də bakalavr təhsilinin müddəti 4 ildir.

## Magistratura

Magistratura ali xüsusi təhsil pilləsi olaraq, ikinci pillə ali təhsildə müəyyən ixtisas üzrə biliklərin dərinləşdirilməsinə xidmət edir.

Avropanın "Bolonya prosesinə" qoşulmuş ölkələri, o cümlədən Azərbaycan ümumi Avropa təhsil çərçivəsi yaratmaq məqsədilə magistr təhsil pilləsini daxil etmişlər. Magistr iki il, peşə yönümündən asılı olaraq öncədən alınmış təhsili elmi cəhətdən dərinləşdirməyə və əlavə ixtisasa yiyələnməyə xidmət edə bilər. Bundan əlavə magistr dərəcəsi aspiranturada təhsil üçün əsas şərt sayılır. Magistraturada təhsilə məhdudiyyət vardır. Azərbaycanda magistr təhsilinin əsasları "Azərbaycan Respublikasının təhsil qanununda" ətraflı verilir.



## Doktorantura

Doktorantura və hərbi təhsil müəssisələrində adyunktura - Azərbaycan Respublikasında yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi, doktorluq elmi dərəcəsinin alınmasını həyata keçirən yüksəksəviyyəli elmi-pedaqoji kadr hazırlığı forması. Müvafiq elmi dərəcələrin (elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru) verilməsi ilə başa çatır.

## Xaricdə təhsil

Günümüz tələbələrinin demək olar ki, yarısı bakalavr təhsillərini bitirdikdən sonra magistr təhsillərini davam etdirmək üçün xaricdə təhsilə üz tutur. Son illərin statistikası da və xaricdə təhsilə maraq və tələbat buradа öz sözünü deyir. Buna səbəb isə tələbələrin bakalavr təhsilləri müddəti ərzində yerli universitetlərdəki tədris, texnologiya və müəllimlərin qiymətləndirmə və tədris metodologiyası ilə tanış olduqdan sonra xaricdə təhsili seçirlər. İstər tələbə həyatının aktiv və sosial şəkildə təşkil olunması ilə, istərsə də təhsilin yüksək səviyyədə tədris olunması ilə xarici universitetlər yerli universitetlərdən bir addım öndədir. Yerli özəl universitetlərin bir çoxunda tədrisin yüksək səviyyədə olmasına baxmayaraq, həmin universitetlərdə illik təhsil haqqı qiymətlərinin yüksək məbləğdə olması səbəbindən dolayı tələbələr özəl universitetlərdə təhsil almaqdan imtina edirlər. Dövlət universitetlərində isə tədrisin aşağı səviyyədə olması, müasir texnologiya və avadanlıqların olmaması, yaşlı və "qiymətyazmayan" yeniliyə açıq olmayan pedaqoqlar və s. bu kimi əsaslı səbəblərdən dolayı tələbələr Azərbaycanda təhsil almaqdan imtina edirlər və xaricdə təhsilə üz tuturlar. Bütün bu amilləri nəzərə alsaq yerli universitetlərə də üstünlük verən tələbələr də azlıq təşkil etmir. Əsas olan təbii ki, tələbəyə hansı uğundursa və rahatdırsa orada təhsil almaq istəməsidir. İstər yerli universitet olsun, istərsədə xarici vacib olan odur ki, sizə nələrsə qata bilsin, bilik və bacarıqlarınızı artırsın!

Xaricdə təhsil almaq, tələbələrə fərqli mədəniyyətlər və təhsil sistemləri ilə tanış olmaq, geniş əlaqələr qurmaq və beynəlxalq səviyyədə tanınan diplomlar əldə etmək imkanı verir.

## 1. Amerika Birləşmiş Ştatları

Ümumi Məlumat: Amerika, dünyada ən çox tələbə qəbul edən ölkələrdən biridir. Burada həm yüksək akademik səviyyə, həm də zəngin mədəni həyat mövcuddur.

*Universitetlər və Fakültələr:*

Harvard Universiteti: Dünyanın ən məşhur universitetlərindən biridir. Biznes (Harvard Business School), hüquq (Harvard Law School), tibb (Harvard Medical School) və mühəndislik sahələrində yüksək səviyyəli təhsil təklif edir.

Stanford Universiteti: Texnologiya və mühəndislik sahəsində liderdir. Kompüter elmləri, mühəndislik və biznes (Stanford Graduate School of Business) üzrə proqramlar xüsusilə məşhurdur.

MIT (Massachusetts Institute of Technology): Texnologiya və mühəndislik sahəsində dünya lideridir. İnformatika, fizika və riyaziyyat sahəsində yüksək səviyyəli təhsil verir.

*Təhsil Haqları:*

Bakalavr proqramları: Orta illik təhsil haqqı $50,000 - $55,000 arasındadır.

Magistr proqramları: Orta illik təhsil haqqı $30,000 - $45,000 arasında dəyişir.

Təqaüdlər: Təqaüd və maliyyə yardımı imkanları genişdir, lakin rəqabət çox yüksəkdir.

Xaricdə Təhsil Həyatı: Amerikada təhsil almaq tələbələrə həm akademik, həm də şəxsi inkişaf üçün geniş imkanlar yaradır. Universitet kampuslarında geniş sosial fəaliyyətlər və tələbə təşkilatları mövcuddur.

## 2. Böyük Britaniya

Ümumi Məlumat: Böyük Britaniya, köklü təhsil ənənələri və yüksək akademik standartları ilə tanınır. Burada tələbələr üçün müxtəlif təhsil proqramları və təhsil səviyyələri mövcuddur.

*Universitetlər və Fakültələr:*

Oxford Universiteti: Humanitar elmlər, sosial elmlər və tibb sahələrində qabaqcıl təhsil təklif edir.
Cambridge Universiteti: Riyaziyyat, təbiət elmləri və mühəndislik üzrə dünya səviyyəli proqramlara sahibdir.
Imperial College London: Mühəndislik, tibb və biznes sahələrində ixtisaslaşmışdır.

*Təhsil Haqları:*

Bakalavr proqramları: Orta illik təhsil haqqı £20,000 - £30,000 arasındadır.
Magistr proqramları: Orta illik təhsil haqqı £15,000 - £25,000 arasında dəyişir.
**Təqaüdlər:** EU və beynəlxalq tələbələr üçün geniş təqaüd proqramları mövcuddur.
**Xaricdə Təhsil Həyatı:** Böyük Britaniyada təhsil almaq tələbələrə zəngin tarixi və mədəni irsi kəşf etmək imkanı verir. Burada tələbələr həm də peşəkar şəbəkələr qurmaq üçün geniş imkanlara sahibdirlər.



## 3. Almaniya

Ümumi Məlumat: Almaniya, yüksək keyfiyyətli təhsili və əlverişli təhsil haqları ilə tanınır. Burada çoxsaylı dövlət universitetləri beynəlxalq tələbələr üçün cəlbedici şərait yaradır.



*Universitetlər və Fakültələr:*

**Heidelberg Universiteti:** Tibb, hüquq və təbiət elmləri sahəsində ixtisaslaşmışdır.
Münhen Texniki Universiteti (TUM): Mühəndislik, informatika və iqtisadiyyat sahələrində güclüdür.
**Humboldt Universiteti:** Sosial elmlər, humanitar elmlər və təbiət elmləri üzrə tanınmışdır.

*Təhsil Haqları:*

**Bakalavr proqramları:** Əksər dövlət universitetlərində təhsil haqqı yoxdur və ya çox aşağıdır (semesteryə 300 - 500 administrativ ödənişlər).
**Magistr proqramları:** Fərqli ödənişlər mövcuddur, lakin yenə də çox əlverişlidir.
**Xaricdə Təhsil Həyatı:** Almaniyada təhsil almaq tələbələrə yüksək akademik səviyyə və inkişaf etmiş texnoloji infrastruktura çıxış imkanı verir. Eyni zamanda, Almaniya Avropanın mərkəzində yerləşdiyi üçün tələbələr üçün səyahət imkanları da genişdir.

## 4. Kanada

Ümumi Məlumat: Kanada, təhlükəsiz və qonaqpərvər mühiti ilə tanınır. Burada beynəlxalq tələbələr üçün geniş təhsil imkanları və çoxsaylı təqaüd proqramları mövcuddur.

*Universitetlər və Fakültələr:*



**Toronto Universiteti:** Biznes, tibb və mühəndislik sahələrində qabaqcıl təhsil təklif edir.
**British Columbia Universiteti (UBC):** Sosial elmlər, təbiət elmləri və iqtisadiyyat üzrə güclü proqramlara sahibdir.
**McGill Universiteti:** Hüquq, tibb və kompüter elmləri sahələrində tanınmışdır.

*Təhsil Haqları:*

**Bakalavr proqramları:** Orta illik təhsil haqqı CAD $20,000 - $40,000 arasındadır.
Magistr proqramları: Orta illik təhsil haqqı CAD $15,000 - $35,000 arasında dəyişir.
**Təqaüdlər:** Beynəlxalq tələbələr üçün təqaüd imkanları genişdir.
**Xaricdə Təhsil Həyatı:** Kanadada təhsil almaq tələbələrə həm yüksək keyfiyyətli təhsil, həm də müstəqil yaşamaq və işləmək imkanı verir. Kanadada müxtəlif mədəniyyətlər və dillər ilə zəngin bir mühit mövcuddur.

## 5. Türkiyə



Ümumi Məlumat: Türkiyə, Azərbaycanlı tələbələr üçün yaxın və mədəni cəhətdən tanış bir ölkədir. Burada təhsil almaq həm maliyyə baxımından əlverişlidir, həm də yüksək keyfiyyətli akademik proqramlar mövcuddur.

*Universitetlər və Fakültələr:*

**Boğaziçi Universiteti:** Mühəndislik, sosial elmlər və biznes üzrə güclü proqramlara sahibdir.
**İstanbul Universiteti:** Tibb, hüquq və humanitar elmlər sahələrində tanınmışdır.
**ODTÜ (Orta Doğu Teknik Üniversitesi):** Mühəndislik, təbiət elmləri və iqtisadiyyat sahələrində qabaqcıl təhsil təklif edir.

*Təhsil Haqları:*

**Bakalavr proqramları:** Orta illik təhsil haqqı $1,000 - $3,000 arasındadır.
**Magistr proqramları:** Orta illik təhsil haqqı $1,500 - $4,000 arasında dəyişir.
**Təqaüdlər:** Beynəlxalq tələbələr üçün müxtəlif təqaüd proqramları mövcuddur.
**Xaricdə Təhsil Həyatı:** Türkiyədə təhsil almaq Azərbaycanlı tələbələr üçün mədəni cəhətdən uyğun və iqtisadi baxımdan əlverişlidir. Burada tələbələr həm də zəngin tarix və mədəniyyət ilə tanış ola bilərlər.
SİA mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrənib.
**Ali təhsil üzrə ekspert, Ped.ü, f.d. Vüsal Kərimli:** "Daha çox azərbaycanlı tələbələr xaricdə təhsil almağa üstünlük verirlər. Bu, ümumi qlobal prosesdir. Bir Alman düşünür ki, hər zaman İngiltərədə təhsil daha yaxşıdır. İngiltərə vətəndaşı düşünür ki, Amerikada təhsil daha yaxşıdır. Hər zaman xaricdə olan cazibədarlıq insanları cəlb edir. Amma xüsusilə İngiltərə, Almaniya, Amerikada təhsil almaq hər zaman cazibədar olub. Tək azərbaycanlılar üçün deyil, bütün dünya əhalisi üçün daha maraqlıdır. Burada əsas fərqlilik ondan ibarətdir ki, xaricdə təhsil proqramlarının tərtibatında çox fərqlilik var. Bizdə tələbələrə həddindən artıq öz ixtisasları ilə əlaqəli olmayan fənlər tədris edilir. Öz sahəsi üzrə dəqiq ixtisaslaşmamasına gətirib çıxarır. Əsas narahatedici faktorlardan biridir. İkinci, xarici universitetlərdə daha çox təcrübə var. Müxtəlif şirkətlərlə əməkdaşlıq var. Özəl sektor maraqlıdır, kadrların hazırlanması ilə və onlara dəstək olurlar ki, gələcəkdə onların işçisinə çevrilsinlər və öz töhfələrini versinlər. Tələbənin aylıq xərcləri müqayisə etsək, o qədər də bizdən artıq deyil. Bunun əsas səbəbi ondan ibarətdir ki, əksər universitetlərin yataqxanası var. Bütün dünyada, Amerikanın ştatından ştatına qiymətlər dəyişir. Burada xərclər dəyişə bilir. Amma deyərdim ki, bizimlə müqayisə edəndə müxtəlif ölkələrdə təhsil alan tələbələrin arasında çox ciddi fərq yoxdur. Çünki orada müəyyən ictimai nəqliyyatda, müxtəlif yerlərdə tələbələrə xüsusi endirimlər təklif edilir ki, bu da cazibədardır. Eyni zamanda tələlərə yataqxanalar təklif edilir ki, bu da ciddi şəkildə maliyyə fərqini azaldır. Nəzərə alsaq, bizdə tələbənin müqayisə etdikdə xərcləri daha çoxdur. Çünki tələbələr daha çox kirayədə qalırlar, bu da tələbələrin aylıq xərclərinə ciddi maneələr verir".





**Təhsil eksperti Rizvan Fikrətoğlu:** "Xaricdə ali təhsil necədir? Söhbət keyfiyyətdənmi gedir? Əgər keyfiyyətdən gedirsə, təbii ki, elə ölkələr var ki, ölkəmizdən aşağıdır, niyə görə ölkəmizi aşağı tutmalıyıq ki? Elə ölkələr var ki, orada təhsil yüksək səviyyədədir. Niyə xaricdə təhsil almağa üstünlük verirlər? Çünki bunun bir neçə səbəbi var: Keyfiyyətinə görə. Yüksək keyfiyyətli təhsil almaq istəyən təbii ki, xaricə gedir. Amma keyfiyyətsiz amil odur ki, test imtahanı verilmir, yola verilir. Həm də qiymət ucuz başa gəlir. İmkanlar genişdir".



Xaricdə təhsil Azərbaycanlı tələbələr üçün həm maliyyə, həm də akademik baxımdan fərqli çətinliklər və imkanlar təklif edir. Hər bir ölkə və universitetin öz unikal üstünlükləri və təhsil haqları vardır. Tələbələr seçəcəkləri universitet və ölkəni, təhsil almaq istədikləri fakültəni və maliyyə imkanlarını nəzərə alaraq diqqətlə qiymətləndirməlidirlər. Təqaüd proqramlarına müraciət etmək də xaricdə təhsil xərclərini azaltmağa kömək edə bilər.

***Söylü Ağazadə***

# Azərbaycanın üzləşdiyi mina təhlükəsi

## 21 MİNDƏN ARTIQ TANK ƏLEYHİNƏ MİNA VƏ 133 MİNDƏN ARTIQ PARTLAMAMIŞ HƏRBİ SURSAT AŞKAR EDİLİB

***Aprelin 4-ü Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü kimi qeyd olunur. Azərbaycan minadan əziyyət çəkən bir dövlətdir. Azərbaycan Ermənistan tərəfindən ərazilərimizin 30 ilə yaxın davam edən hərbi işğalı zamanı, habelə hazırkı postmünaqişə dövründə mina təhdidindən əziyyət çəkən, çoxsaylı mina qurbanları verib. Ermənistan tərəfindən hətta postmünaqişə dövründə belə davam etdirilən mina təhdidi bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı prosesini ləngitməklə yanaşı, vətəndaşlarımızın həyat və sağlamlıqları üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır.***

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın döyüş meydanında qazandığı Zəfər bütün dünyaya yayıldı və ölkəmizin qısa bir zamandakı hərbi əməliyyatı, taktikası dünya ölkələri tərəfindən böyük maraqla qarşılandı. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurmaqla, onları torpaqlarımızdan "iti qovan kimi" qovaraq məğlub etməsi 30 ilə yaxın işğal altında olan tarixi torpaqlarımızın azad olunması ilə nəticələndi. Artıq Azərbaycan işğaldan azad olunan torpaqların abadlıq-quruculuq işlərinə başlayıb. Həyata keçirilən layihələr bu ərazilərin dirçəlməsinə səbəb olur. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrini birində bildirdiyi kimi, "Biz çox böyük sürət götürmüşük və əsas məqsədimiz keçmiş qaçqınları və köçkünləri tezliklə öz yurdlarına qaytarmaqdır, onlar hədsiz çox gözləyiblər. Mən bu barədə demişəm, bir daha demək istəyirəm ki, bizim əsas maneəmiz, əsas rəqibimiz zamandır".


















### ON MİNLƏRLƏ VƏTƏNDAŞIN, MİNATƏMİZLƏYƏNLƏRİN HƏYATININ TƏHLÜKƏDƏN XİLASI

Təbii ki, qısa bir zaman məsafəsində bütün ərazilərin tam abadlaşması bir qədər çətindir. Belə ki, erməni təcavüzkarları işğal altında olan ərazilərimizi darmadağın edərək xarabazarlıqlara çeviriblər. Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi fikirləri xatırlatmaq yerinə düşər. "Mən Bakıdan Füzuliyə, Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına qədər və digər istiqamətdə Kəlbəcər və Laçın tərəfdən yüzlərlə kilometr yol qət etmişəm, orada hər şey dağıdılıb", - deyən Prezident qeyd edib ki, dağıntıların miqyası elədir ki, insan, sadəcə, mat qalır: "Axı, bu ərazi sahəsinə görə Livana bərabərdir. Təsəvvür edin, dünyada heç də ən kiçik olmayan bir ölkənin Livanın ərazisinə bərabər ərazini tikmək, abadlaşdırmaq lazım gələcək. Bunu, sadəcə, təsəvvür etmək üçün dedim. Orada heç nə yoxdur, nə yol var, nə işıq, nə qaz, nə su. Heç nə. Tamamilə heç nə". Bəli, belə bir vəziyyətdə olan torpaqlarımıza qovuşduq və abadlıq-quruculuq işləri sürətlə aparılır.

Bu gün həmin ərazilərdə genişmiqyaslı layihələr icra olunur. Bir sıra magistral avtomobil yolları, dini-tarixi abidələr, infrastruktur layihələri icra olunub və bu davamlı həyata keçirilir. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır.

Əlbəttə ki, bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. Bildiyimiz kimi, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. İlk olaraq Ağdamda, daha sonra isə Füzuli və Zəngilanda basdırılmış minaların xəritələrinin Ermənistandan alınması on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir. Minaların təmizlənməsi maliyə itkisi ilə yanaşı, vaxt itkisinə də səbəb olur. Ermənistanın basdırdığı minalar mülki əhalinin təhlükəsizliyi, sağlamlığı və həyatı üçün ciddi təhlükə törədir və ya azad edilmiş ərazilərdə sosial-iqtisadi inkişafa mane olur.

### 190 MİN HEKTARDAN ARTIQ ƏRAZİDƏN MİNA VƏ PARTLAMAMIŞ HƏRBİ SURSATLAR TƏMİZLƏNİB

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra, 2020-ci il noyabrın 10-dan bugünədək Azərbaycanda 385 nəfər mina qurbanı olub, bunlardan 315-i xəsarət alıb, 70 nəfər isə həyatını itirib. Bu günlərdə daha bir nəfər Ağdam rayonu ərazisində mina partlaması nəticəsində xəsarət aldı. 2020-ci il 10 noyabr tarixindən bugünədək baş vermiş mina hadisələrindən 152-si işğaldan azad olunmuş ərazilərimizdə keçmiş təmas xəttindən kənarda qeydə alınıb. İndiyə kimi humanitar minatəmizləmə fəaliyyətinə ayrılmış vəsaitin təqribən 5 faizə qədər hissəsi beynəlxalq donorların hesabına, qalan hissəsi isə Azərbaycan hökumətinin öz resursları vasitəsilə həyata keçirilib. 2020-ci ilin 10 noyabrından bugünədək 190 min hektardan artıq ərazidən mina və partlamamış hərbi sursatlar təmizlənmiş və bu müddətdə 36 mindən çox piyada əleyhinə, 21 mindən artıq tank əleyhinə mina və 133 mindən artıq partlamamış hərbi sursat aşkar edilib. Təkcə ötən ay 4556 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. Ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 331, tank əleyhinə 105 mina və 9755 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

### TƏHLÜKƏSİZ HƏRƏKƏT ÜÇÜN ƏRAZİLƏR MİNALARDAN TƏMİZLƏNİR

Bu gün əlbəttə ki, azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir. Təhlükəsiz hərəkət üçün yollar minalardan təmizlənir. Onu da qeyd edək ki, mina partlayışları nəticəsində həyatını itirən insanların sayının artması nəticəsində Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etmək məqsədi ilə Azərbaycan tərəfindən dünya ictimaiyyətinə, beynəlxalq qurumlara və təşkilatlara, o cümlədən BMT-nin Baş Katibliyinə, BMT-nin İnsan Hüquqları Şurasına, Avropa Şurasına və Avropa İttifaqına müraciət ünvanlanıb.

Azərbaycan bu istiqamətdə ardıcıl işlər görür. Bildiyimiz kimi, Ağdamda "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda 2-ci beynəlxalq humanitar minatəmizləmə konfransı keçirilmişdi. Keçirilən konfrans mina təhlükəsi ilə mübarizə istiqamətində qlobal həmrəylik nümayiş etdirərək, yeni tərəfdaşlıqlar qurmaq və minasız dünyaya yol açacaq konkret fəaliyyət planları hazırlamaq üçün bir imkan yaratmaqda əhəmiyyətlidir. Konfransda 51 ölkəni təmsil edən 160-a yaxın rəsmi şəxs - sabiq dövlət və hökumət başçıları, bir sıra ölkələrin parlament üzvləri, BMT baş ofisinin rəhbər heyəti, nüfuzlu beynəlxalq təşkilatların, minatəmizləmə sahəsində fəaliyyət göstərən qurumların, eləcə də Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri iştirak ediblər.

Ağdamda keçirilən konfransda münaqişədən zərər çəkmiş bölgələrdə infrastrukturun təhlükəsiz bərpası, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıtması, regionda davamlı sülhün bərqərar olması, habelə investisiya proqramlarının həyata keçirilməsi üçün humanitar minatəmizləmə fəaliyyətinin əhəmiyyəti və Dayanıqlı İnkişaf Məqsədləri ilə birbaşa bağlılığı ətrafında müzakirələr aparılıb. Qeyd edək ki, ANAMA və BMT-nin birgə təşkilatçılığı ilə reallaşan konfransın əsas məqsədi ölkəmizin üzləşdiyi mina probleminin miqyası və törətdiyi fəsadları beynəlxalq ictimaiyyətin və mina təhlükəsi ilə mübarizədə maraqlı olan tərəflərin diqqətinə çatdırmaqdır. Bundan başqa, problemin qlobal xarakter daşıdığını nəzərə alaraq, konfrans humanitar minatəmizləmə üzrə milli və qlobal Dayanıqlı İnkişaf Məqsədinin təqdim edilməsini, bu istiqamətdə birgə tərəfdaşlıq və dəstəyin gücləndirilməsini hədəfləmiş oldu.

Ermənistan minalanmış sahələrin tam xəritələrini verməsə də, bu gün artıq Azərbaycan işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərini davam etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Apreldən böyük ZƏFƏRƏ...

***Bu xalq torpağı namus hesab edir. Bu namus haqqında danışmağın zamanı, anı yoxdur. Hər an danışmalıyıq. Danışdıqca da işğalı unutmamalı, Zəfərin qüruru ilə yaşamalıyıq. Çünki torpaqlarımız erməni işğalında qaldıqca, yuxularımız şirin, başımız, qamətimiz dik ola bilməzdi. Biz özümüzdə güc hiss edən kimi o torpaqları geri almaq üçün ayağa qalxacaqdıq. 2016-ci ilin aprelində, 2018-ci ilin mayında, 2020-ci ilin iyulunda, 2020-ci ilin sentyabrında olduğu kimi. Bu gündən baxanda 9 il əvvəldə bir abidə görünür: Aprel abidəsi. Bu abidə adi abidə deyildi, məşəlli bir abidə idi, o, Zəfərə gedən yolu işıqlandırırdı. Apreldən maya, maydan iyula, iyuldan sentyabra uzanan yolun sonundakı Zəfəri... O Zəfər ki, itirdiyimiz generalımızla, polkovnikimizlə, minlərlə qurbanımız, yüzlərlə qazimizlə ona nail ola bildik.***



## Böyük yolun başlanğıcı

Böyük Zəfərə aparan yol öz başlanğıcını 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq dörd gün davam edən döyüşlərdən, 2018-ci il may ayının 20-dən 27-dək Naxçıvan Muxtar Respublikasında həyata keçirilən Günnüt əməliyyatından, 2020-ci ilin tarixi iyul günlərindən götürmüşdü. Bu yolun başlanğıcında biz artıq torpaqlarımızı işğaldan azad etməyə hazır olduğumuzu bəyan etmişdik. 30 ilin əvvəlində itirdiklərimizi 30 ilin tamamında geri almağa qalxmışdıq. İki 30 arasındakı zaman kəsiyi bu ölkəni əsarətdən müstəqilliyə, iqtisadi böhrandan inkişafa, ordu yoxluğundan ordu varlığına gətirib çıxarmışdı. Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişi ilə bütün sahələrin inkişafı üçün hazırladığı konsepsiya sonrakı illərdə uğurlu nəticələri ilə ölkəmizi dirçəltmiş, ərazi bütövlüyümüz məsələsini gündəmə gətirmişdi. Ötən illərdə ölkədə gənc nəslin vətənpərvər ruhda böyüməsi, torpaqların işğalı səbəblərinin olduğu kimi anladılması onların hər birində o ruhu formalaşdırmışdı ki, Vətən üçün bir əmr yetər.

Aprel döyüşləri Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında baş vermiş hərbi münaqişə, 1994-cü ildə atəşkəs haqqında imzalanan sazişdən bəri ən şiddətli döyüşlər idi. Hələ də düşüncələri 1990-cı illərdə qalan ermənilərin bu dəfə də üstünlük əldə etmə kimi yanlış fikirləri elə həmin dörd gündə alt-üst oldu. Döyüşlər Silahlı Qüvvələrimizin qələbəsi ilə nəticələndi, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu. Aprel döyüşləri bir abidəyə çevrildi. Məşəlli bir abidəyə... Yanarlığı ilə xalqa qarşıda işıqlı yolun, o yolun sonunda isə Zəfərin olduğuna işarə verdi.

## Düşmənə verilən aprel dərsinin davamı

Lakin düşmən düşmənliyində, tamahkar tamahkarlığında qalar, deyiblər. Erməni olasan, tamah dişini çəkib atasan, bu mümkün olan iş deyil. Həm də 1990-cı illərin havası yuxarıda da qeyd etdiyim kimi, bu tayfanı nədənsə tərk edə bilmirdi. Bu səbəbdən aradan dörd il ötəndən sonra yenidən baş qaldırdılar. Bu dəfə isə özlərinin də vurğuladığı kimi, böyük hazırlıqla. 2020-ci ilin iyul ayının 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutdular. Silahlı Qüvvələrimizin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısı alındı. Döyüşün ilk saatlarında Azərbaycan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusu şəhid oldu, 5 nəfər yaralandı, onlardan biri daha sonra aldığı yaralardan dünyasını dəyişdi. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, döyüşlər zamanı Ermənistan Ordusunun şəxsi heyəti çoxsaylı itki vermişdi.

İyulun 13-də də qızğın döyüşlər getmişdi. Tovuz istiqamətində tərəflərin bir-birinə qarşılıqlı zərbələr endirməsi yenə də davam etmişdi. Ermənistan kütləvi informasiya vasitələri Ermənistan hərbi bölmələrinin Tovuz rayonunun Ağdam kəndi istiqamətində yerləşən Qaraqaya yüksəkliyini ələ keçirməsi barədə məlumat yaysalar da, Azərbaycan Müdafiə Nazirliyi yayılan məlumatları təkzib edib və heç bir ərazi itkisinin olmadığını, mövqelərin əvvəlki qaydada qaldığını bildirmişdi. Döyüş zamanı Ermənistan artilleriyası toplarla Tovuzun Dondar Quşçu və Ağdam kəndlərini də atəşə tutmuşdu.

14 iyul döyüşləri isə yaddaşımıza həm ağır, həm də silinməz hadisə ilə həkk olundu. Həmin gün Ermənistan Silahlı Qüvvələrinin bölmələri səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutmuşdu. Erməni Ordusunun hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və həmçinin hücumun qarşısını alarkən 5 hərbi qulluqçumuz da həlak oldu. Bu döyüşlərdə yaralananlaratımız da var idi. Ermənistanın artilleriya atəşləri nəticəsində Ağdam kəndinin 76 yaşlı sakini həlak olmuşdu.

Biz torpaqlarımız-namusumuz uğrunda general-mayorumuzu, polkovnikimizi itirdik. Bununla sübut etdik ki, bu ölkədə sıravi əsgərdən tutmuş general- mayoradək, polkovnikədək hər kəs ərazi bütövlüyü uğrunda canından keçməyə hazırdır. Ta ki, Vətən tam olsun. Ta ki, əzəli torpaqlarımız, ata-baba yurdlarımız düşmən tapdağı altında qalmasın.

14 iyul hər bir azərbaycanlının qəlbində bir abidə ucaltdı. Bu abidə Polad Həşimov və İlqar Mirzəyev abidəsidir. Bu abidədə iyul döyüşlərində canından keçən bütün döyüşçülər iki yüksək rütbəli zabitimizin ətrafında birgə ucalıb. Bu abidə elə bir abidədir ki, əsrlər sonra da torpaqlarımızın azadlığına gedən yolda xatırlanacaq. Onların əziz xatirəsi hər zaman anılacaq, gələcək nəsillərə qürurla danışılacaq. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev həmin günlər bildirdi: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib". Beləliklə, iyul döyüşləri bizim qürurumuzla yanaşı, həm də aprel döyüşləri zamanı düşmənə verilən dərsin davamı oldu.

## Aprel abidəsi Zəfər abidəsinə çevrildi

Apreldən sentyabra-Zəfərə gedən yolda bu abidə həm də məşəl oldu. Həşimov və Mirzəyev bu məşəli əlləri ilə yandırıb bu yolu işıqlandırdılar. 44 günlük payızda əldə etdiyimiz Zəfər bu məşəllə işıqlandı, 44 günün hər bir şəhidi, qazisi bu məşəlin şölələrində əllərini isidib payızın sazağında, soyuğunda düşmənlə mübarizə apara bildilər.

Bu abidə ətrafına cəmi iki aydan sonra minlərlə şəhidi, yüzlərlə qazini topladı. Onlar abidədə dəmir yumruğa çevrildilər. Bütün dünyaya sübut etdilər ki, müzəffər Ali Baş Komandanın dəmir yumruğu ətrafında cəmlənmiş yumruqlardır. Yeri gələndə düşmənin başına çırpılmağa hazır olan bu yumruqlar bir daha torpaqlarımızın bir qarışının belə itirilməsinə imkan verməyəcək.

2016-cı ilin Aprel, 2018-ci ilin Günnüt əməliyyatı qələbələri ilə 2020-ci ilin Tovuz döyüşlərində ermənilərin gücsüzlüyünü ortaya qoydu, eləcə də Tovuz döyüşləri sentyabrda başlayacaq İkinci Vətən Müharibəsinə zəmin yaratdı. Artıq yeni torpaqlar iddiasında olan düşmənə bundan gözəl cavab ola bilməzdi. Ermənini yerində oturtmağın zamanı gəlib çıxmışdı. Aprel, may və iyul döyüşlərindən görünür ki, yetərincə dərs almayan düşmən sentyabr ayında yeni hücum əməliyyatlarına başlayanda bunu sübut etdirdi ki, bəli, o, həmin döyüşlərdən ibrət dərsi götürməyib. Belə olan təqdirdə isə onları yerlərində oturtmaqdan başqa çarə qalmadı.

Sentyabrın 27-də Ali Baş Komandandan əmr alan Azərbaycan Silahlı Qüvvələri hücuma başladı. Birinci Vətən Müharibəsindən başlanan yol İkinci Vətən Müharibəsində başa çatdı. Bu yolun hər addımında manea olan erməni cəmi 44 gün içərisində elə yerində oturduldu, elə diz çökdü ki, əsrlər sonra da özünə gələ, səsini çıxara, Azərbaycan torpaqlarına tərəf baxa bilməz.

Bəli, 44 günlük müharibə həm Birinci Vətən Müharibəsi, həm də aprel, may, iyul döyüşlərinin iştirakçılarının qisası ilə nəticələndi. Eyni zamanda, minlərlə qaçqın, köçkün, didərgin adını illərlə üzərində daşıyan insanların intiqamını aldı düşməndən. Onların 30 ildə çəkdikləri torpaq həsrətinin, ata yurdu yanğısının, doğma ev-eşik nisgilinin səbəblərini cavablandırmağı tələb etdi düşməndən.

Düşmən tamahının, yalan və fırıldağının, qəddarlığının, illərdən bəri həyata keçirdiyi işğalçılıq siyasətinin, törətdiyi soyqırımı və faciələrin hər birinin cavabını aldı. "Böyük Ermənistan" xülyası nəhayət ki, əsrlər sonra XXI əsrdə boşa çıxdı. Ermənistanın vətəndaşına tutduğu divan da meydana çıxdı. İnsanları zorla döyüşməyə vadar etdiklərinin, bunun üçün küçələrdən gəncləri, qadınları, qocaları zorla maşınlara yığılıb cəbhəyə göndərdiklərinin, bütün bunların isə burada yaşayanların etirazına səbəb olduğunun şahidi olduq. Şahidi olduq ki, bu tayfa həqiqətən də yer üzündə görünməmiş vəhşi bir qəbilə imiş. 30 ildə daşı daş üstündə qoymadıqları rayonlarımızda gördük ki, onlar tək insan qatili deyil, həm də o insanların yurdlarının qatili imişlər.

Torpaqlarımız bir-bir azad olduqca, üçrəngli bayrağımız doğma torpaqlarımızda dalğalandıqca, Zəfər dalğası ilə düşmənin bağrı çatladı, gözləri kor oldu.

## O apreldən bu aprelə

O apreldən bu aprelə bizi düz doqquz illik zaman fasiləsi ayırır. 2016-cı ilin apreli, 2022-ci ilin apreli. O apreldən bu aprelədək 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt əməliyyatı, 2020-ci ildə İyul döyüşləri, həmin ilin sentyabrda başlanan Vətən müharibəsi, 44 günlük müharibənin Zəfərlə bitməsi, Qarabağın işğaldan azad olunması və soydaşlarımızın ata-baba yurdlarına qayıtması üçün görülən genişmiqyaslı quruculuq və bərpa işləri tariximizin şanlı səhifələrini təşkil edir.

Görünür, ötən zamanın sadalanan hadisələri düşmənin başına bu hadisələr böyüklükdə daş salsa da, paxıllıq və riyakarlıq hisslərinə heç bir təsir göstərməyib. Göstərə də bilməzdi. Çünki bu hisslər onların xislətindədir və tarixin bütün dönəmlərində bu, dəyişməz olaraq qalıb. Ermənistan Silahlı Qüvvələri Vətən müharibəsindən sonra sərhədlərimizdə bir neçə dəfə münaqişə törətmək istəyib. Deməli, biz tarixin özünün də xisləti qarşısında məəttəl qaldığı elə bir tayfa ilə qonşuyuq ki, bunlar arın, abır-həyanın, utanmağın nə olduğunu əsla bilmirlər. Öyrənmək isə onların xislətində yoxdur. Bunun əvəzinə digər qonşularından həmişəki kimi yenə də dəstək alıb utanmazcasına sərhədlərimizə atəş açır, nə istədiklərini anlamadan yenə də başqalarının tapşırıqlarına baş əyirlər. Sual olunur, nə vaxtadək? Axı bütün cəhdləriniz boşa çıxır. Heç nəyə nail ola bilmirsiniz. Bunu görmək nə qədər çətindir ki?..

Azərbaycan öz torpaqlarını qorumağa qadirdir. 30 il sonra işğaldan azad etdiyi torpaqları isə göz bəbəyi kimi qoruyur. Biz son nəfərimizədək canımızdan keçərik, lakin bir qarış torpağımızın düşmən əsarətinə keçməsinə razı olmarıq. Bunu düşmən hələ də anlamayıbsa, özündən küssün. Qarşıda onu nələrin gözləyəcəyini düşünsün. O aprel də, bu aprel də bir abidədir: igidlik, qəhrəmanlıq abidəsi. Zəfərə gedən yolun üzərində olan bu abidə daim qürurla dayanacaqdır. Neçə aprellər sonra da...

***Mətanət Məmmədova***

# Erməni katolikosları kilsələri terror yuvasına çeviriblər

Kitablardan oxuduqlarımıza, televiziyalardan seyr edib eşitdiklərimizə, gördüklərimizə əsasən demək olar ki, din hər bir bəşər övladını sülhə, birliyə çağırır. İslam dininin əsas hədəfi, məqsəd və məramı insanlığa, bəşəriyyətə xidmət üzərində qurulub. Bununla bağlı on minlərlə misal, sübutlarda göstərmək olar. Ancaq bu vacib hesab edilən amilləri ermənilərə aid etmək olmaz. Ermənilər dindən siyasi məqsədləri üçün istifadə edirlər. Xüsusilə də, ermənilər terror aktlarını din pərdəsi altında həyata keçirirlər. Bəzən ermənilər əyinlərinə keşiş paltarı geyinib iri şəhərlərdə terror aktları törədiblər, yüzlərlə insanın ölümünü həyata keçiriblər. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən Müharibəsində erməni keşişləri ətraflarında olan terrorçu dəstələri terror aktları törətmək, dinc azərbaycanlıları qətlə yetirmək üçün hər cür vasitə və üsullardan istifadə etmişlər. Eçmiədzində oturub. Dünya erməni terroruna rəhbərlik edənlərdən biri olan II Qaregin müharibədə kilsə nümayəndələrinin qan tökməkdə fəal iştirak etmələri üçün xüsusi tapşırıqlar da vermişdir. Sonradan döyüşlərin gedişində Azərbaycanın qəhrəman əsgərlərinə əsir düşən erməni kilsəsinin nümayəndələri II Qaregini ifşa edən açıqlamalar vermişlər. Bütün bu kimi faktlar onu təsdiq edir ki, terror aktlarının təşkil edilib, həyata keçirilməsində erməni kilsəsinin xüsusi rolu var. Ümumiyyətlə, mövcud araşdırmalarla təsdiq olunur ki, erməni katolikosları bu bölgəyə köçürülüb, möhkəmləndikdən sonra əsas işləri terror aktları törətməklə dinc azərbaycanlıları qətlə yetirmək olub. Hələ 17-ci və 18-ci əsrlər də onların dini mərkəzi olan Eçmiədzin kilsəsinin əsas işi bölgədə pozucu rol oynamaq olub. Erməni katolikosları özlərini humanist mövqeli tərəf kimi göstərərək vaxtaşırı İrəvan xanlığına hücumlar təşkil edib, qarətlər, yanğınlar törədən Kartli Kaxetiya çarlığı ilə İrəvan xanlığı arasında vasitəçilik etməyə çalışıblar. Məkrli məqsədləri elə hər iki tərəfdə ermənilərin sakit yaşayışını və xarici ölkələrdən köçürülməsini təmin etməkdən ibarət olub. Müəyyən hallarda çarlığa təlimatlar və satqınlıqları hesabına Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsinə nail olmuşlar.










## Azərbaycanlıların qətlində erməni kilsəsinin xüsusi rolu olmuşdur

1780-ci ildə Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsində erməni kilsəsinin xüsusi rolu olmuşdur. Nəticədə, İrəvanın məhv edilməsinin qarşısını almaq üçün xanlığın Karte-Kaxetiyada siyasi asılılıqda olmasına razılıq verməklə yanaşı, hər il çarlığa vergi verməyə vəd verilmişdir. Yalnız Osmanlı imperiyasının yardımından sonra düşmənə çevrilən qonşular İrəvan üzərində iddialarından əl çəkmişlər. Bundan sonra İrəvan xanlığı əvvəlki iqtisadi qüdrətini bərpa edə bilmişdir. İrəvan xanlığında yaranan sakitlik bir qədər sonra indiki farsmolla rejiminin ərazisində mövcud olmuş xanlığa olan hücumları ilə pozulmuşdur. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar İrəvan xanlığına hücum edərək Mirmehdi xanın nəvəsi Məhəmməd xanı hakimiyyətdən devirərək onun yerinə Əliqulu xanı İrəvan xanı təyin etmişdir. Amma Əliqulu xanın da hakimiyyəti uzun çəkməmişdir. 1979-cu ildə Ağa Məhəmməd xan Qacarın öldürülməsindən sonra Məhəmməd xan Əliqulu xanı devirərək İrəvanda hakimiyyəti ələ almışdır. O dövrün tarixi sənədlərinə əsasən, demək olar ki, İrəvan xanlığında yaşayan əhalinin 90 faizi azərbaycanlılar, 10 faizini isə erməni, gürcü və digər xalqların nümayəndələri təşkil etmişlər. 1897-ci ildə Rusiya imperiyasının Qafqazda, eləcə də, İrəvanda əhalinin siyahıya alınması zamanı əldə olunan məlumatlarda Qarabağda əsasən azərbaycanlıların yaşadıqları təsdiq olunub. Belə ki, siyahıya alınmaya görə, xanlıqda 313 min 178 azərbaycanlı 11 min 317 nəfəri ermənilər yaşamışdı. 1817-ci və 1819-cu illərdə İrəvanda olmuş ingilis arxeoloqu və səyyahı Robert Kerr Ports yazırdı ki, İrəvan xanlığının uzunluğu 200 rnil, eni isə 100 mildir. Müasir erməni tarixçisi T.Akopyan da İrəvan xanlığının əhalisinin əsasən azərbaycanlılardan ibarət olduğunu və ərazisinin 24 min kvadratmetr olduğunu yazırdı. İrəvan şəhəri inzibati cəhətdən 3 məhəlləyə bölünürdü: şəhər məhəlləsi, Topbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi. İrəvan xanlığında türkdilli azərbaycanlıların yerli xalq olması sübuta yetirilmiş faktdır. Bunu Qafqazın ali baş komandanı general Paskeviç rəsmi məlumatlarda da qeyd etmişdir. General Paskeviç İrəvan xanlığında əhalinin milli tərkibi haqda verdiyi məlumatda qeyd edirdi ki, burada 10 min azərbaycanlı, 3 min erməni ailəsi yaşayır. ABŞ-dan olan professor Castin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin azərbaycanlı olduğunu göstərir. S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu müsəlmanların, yəni azərbaycanlıların təşkil etdiyini yazmışdır. Onun hesablamalarına görə, İrəvan əyalətində 16.075 ailə (81.749 nəfər) müsəlman, 4.428 ailə (25.151 nəfər) isə erməni idi. Müsəlman dedikdə S.Şopen azərbaycanlıları və müsəlman kürdləri nəzərdə tutur. 18-ci əsrin ortalarında Azərbaycanın Qərbində yaradılan qüdrətli xanlıqlardan biri də Qarabağ xanlığı olmuşdur. 1748-ci ildə Pənahəli xan Cavanşir tərəfindən yaradılan Qarabağ xanlığı Kürlə Araz çayları arasında yerləşmiş, ətrafı sıldırım keçilməz qayalar, yaşıl meşələrlə əhatə olunmuşdur. Pənahəli xan Qarabağın göz oxşayan səfalı yerini mərkəz seçərək, orada Qarabağın qala qapısı hesab olunan Şuşa şəhərini Qarabağın paytaxtı olaraq inşa etdirirdi.

## Erməni məliklərini zərərsizləşdirməsindən sonra ətrafdakı ermənilər də Pənahəli xandan qorxmağa, onun əmrlərinə tabe olmağa başlamışlar

Qarabağ xanlığının ərazisində də İrəvan xanlığının ərazisində olduğu kimi Cavanşir, Otuzdilər, Cəbirli, İyirmi dörd, Baharlı, Ziyadoğullar və bu kimi məhəllələrin tikilməsi və onların da idarə etməsini naiblər tərəfindən həyata keçirilməsi bu ərazilərdə türk adətənənələrinin və idarəetmə üsulunun dəyişməz olduğunu göstərir. Pənahəli xanda dərin zəka, yüksək idarəetmə qabiliyyətinin olması və hərbi bilikləri mükəmməl şəkildə mənimsəməsi Qarabağın siyasi, hərbi, iqtisadi qüdrətinin artmasına səbəb olmuşdur. O, müdrik siyasət yürüdərək qonşu dövlətlərlə dostluq əlaqələri qurmuşdur. Bununla yanaşı, xan düşmən hücumlarından ehtiyat edərək Qarabağı, xüsusi ilə də paytaxt Şuşa ərazisini qalalarla, istehkam sədlərlə möhkəmləndirmişdir. Məhz Pənahəli xanın göstərişi əsasında 1748-ci ildə Barat, 1751-ci ildə Şahbulaq, 1750-ci ildə isə Şuşa qalası inşa edilmişdir. Bu dəfə də ermənilər məkrli, satqın, xəyanətkar fəaliyyətlərini davam etdirməklə möhkəmlənməkdə olan Qarabağ xanlığına təhlükələr yaratmağa çalışırdılar. Ermənilərin satqınlığını, xəyanətini bağışlamayan Pənahəli xan onları cəzalandırmaq qərarına gəlir. Sarayda məclis quran Pənahəli xan satqın erməni məliklərini ora dəvət edir. Xan erməni məliklərinin xəyanətini sübut etdikdən sonra onlardan beşini şəxsən özü məhv edir, qalanlarını isə ömürlük həbsdə saxlanılması üçün Ərbədil xanına təhvil verir. Sarayda keçirilən məclisdə erməni məliklərini zərərsizləşdirməsindən sonra ətrafdakı ermənilər də Pənahəli xandan qorxmağa, onun əmrlərinə tabe olmağa başlamışlar. Məhz bundan sonra Pənahəli xan Qarabağın ərazilərini genişləndirir. Bunun da nəticəsində Pənahəli xan İrəvan, Gəncə, Naxçıvan və Ərdəbili Qarabağ xanlığına birləşdirə bilmişdir. Təbii ki, Qarabağın ərazisinin genişlənməsi fonunda xanlığın güclənməsi İran şahını ciddi narahat etmişdir. Məhz bu narahatlığı aradan qaldırmaq və xanlığı məhv etmək üçün 1757-ci ildə Məhəmmədhəsən xan Qacar Qarabağa hücum etmişdir.

## Bölgənin tarixini dəyişən "Xatın arxı" döyüşü

Tarixdə "Xatın arxı" kimi adı qeyd olunan ərazidə gedən döyüşlərdə Pənahəli xan böyük iştaha və iddialarla xanlığa hücum etmiş Məhəmməd xan Qacarı məğlub etmişdir. Bu döyüşdə Pənahəli xan şəxsi şücaət, yüksək döyüş nümunəsi göstərmişdir. Darmadağın edilən Məhəmməd xan Qacarın qoşununun tör-töküntüləri qaçarkən o dövr üçün çox əhəmiyyətli hesab olunan 150-yə yaxın tüfəngi, 5 ədəd topu döyüş meydanında qoyub qaçmışlar. Bu biabırçı məğlubiyyətdən sonra Məhəmməd xan Qacar Qarabağ xanını açıq döyüşdə məğlub etməyin mümkün olmadığını başa düşdüyündən Pənahəli xanı hiyləgərlik yolu ilə sıradan çıxarmağa cəhd göstərmiş və istəyinə də nail olmuşdur. Belə ki, Məhəmmədhəsən xan Qacardan sonra hakimiyyətə gələn Kərim xan Zənd Urmiyyə qalibiyyətini zəfər günü kimi qeyd etmək üçün "Şiraz qonaqlığına dəvət edir. Bu qonaqlıqda Pənahəli xan girov götürülür. Pənahəli xanın İran şahının hiyləgərliyinin qurbanı olmasından sonra Qarabağda hakimiyyət uğrunda mübarizə başlayır. Bu mübarizə daha çox İbrahimxəlil xan və Mehrəlibəy arasında gedir. Amansız döyüş İbrahim xanın Mehrəli bəyin üzərində qalibiyyəti ilə başa çatır. İbrahimxəlil xanın hakimiyyətdə olduğu 1763-1806-cı illəri Qarabağın inkişafı tərəqqi dövrü hesab etmək olar.

O dövrdə Qarabağın hərbi iqtisadi qüdrəti gürcü çarları ilə yanaşı, Rusiyaya ilan zəhəri verən erməni məliklərini də ciddi narahat etmişdir. Ona görə də bu qüvvələr Qarabağa hücum təşkil etmək üçün birgə iş planı qururlar. Amma 1787-1795-ci illərdə Rusiya ilə Osmanlı imperiyası arasında müharibənin başlanması birləşmiş qüvvələrin Qarabağa planlaşdırılan hücumlarının qarşısını almışdır. Bununla da Qarabağ xanlığı inkişafını və hərbi qüdrətini artırmaqda davam etdirmişdir. Amma bir həqiqət var ki, məkrli düşmən heç zaman yatmır. Düşmən hər zaman bölgənin aparıcı xanlıqlardan olan ərazini işğal etmək, insanları isə məhv etmək üçün fürsət gəzir. Bax, bu fürsəti əldə edən Rusiya, Gürcüstan və erməni məlikləri 1806-cı ilin iyunda Qarabağın ərazilərini işğal etməyə başladılar. Hətta Şuşadakı rus qarnizonunun rəisi mayor Lisamoviç Cıdır düzündə ailəsi ilə yaşayan İbrahimxəlil xanı xaincəsinə qətlə yetirir. Bununla da Qarabağ Rusiya imperiyasının işğal zonasına çevrilir. Lakin haqq-ədalət 2020-ci ilin sentyabrından bərqərar olmağa başladı. Nəhayət, 2023-cü ilin sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Azərbaycanın süverenliyinin bərpa olunması ilə başa çatdı. Bununla həm erməni terrorçularından, həm də onlara himayədarlıq etmiş qüvvələrdən sərt və qətiyyətli qisas alınmış oldu.

***İLHAM ƏLİYEV***

# 2025 və GƏLİNLİK DƏBİ

ARAŞDIRMA

***2025 gəlinlikləri çox güclü və orijinaldır. Hər gəlinlik bir hekayə danışır, amma indi 2025 gəlini bu hekayənin qəhrəmanı olmaq istəyir. Yeni mövsümdə gəlinliklər klassik zərifliyi müasir toxunuşlarla birləşdirir, hər tikişdə orijinallıq və hər detalda iddia daşıyır. 2025-ci ildə unudulmaz iz buraxmaq istəyən gəlinlər üçün sadəcə xəyal kimi görünməyən 7 ən diqqət çəkən trend...***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Lüks teksturalar

Burada gözləri oxşayan gəlinliklərin hamısının ortaq bir cəhəti var idi: heyrətamiz teksturalar. Parçanın üstündə çiçək kimi görünən aplikasiyalar, lələklər, kristallar, qotazlar, mirvarilər... Türk dizayneri Begüm Salihoğlu da bu tendensiyaya uyğunlaşanlardandır.

## Çıxarıla bilən qollar

Qəşəng uzunqol gəlinlik və ya seksual straplez siluet arasında qərar verə bilmirsiniz? New York Bridal Fashion Week-in yeni kolleksiyalarına görə, qərar vermək məcburiyyətində deyilsiniz! Hera Couture və Julie Vino kimi dizaynerlər qəşəng ikisi birində bir görünüş üçün straplez gəlinliklərini çıxarıla bilən qolları ilə tərtib ediblər. Bu tendensiya ilə siz əslində iki gəlinlik alırsınız. Mərasim zamanı zərif, çiyinlərdən kənar bir görünüş üçün qolları geyə bilə, sonra rəqs zamanı onu çıxara bilərsiniz. Ultra romantik bir toxunuş üçün şəffaf krujeva seçə bilərsiniz.



## Korset modelləri

Ənənəvi olaraq patriarxiyanın və məhdudiyyətin simvolu kimi qəbul edilən korsetlər günümüzün dizaynerləri tərəfindən tamamilə yeni səviyyəyə qaldırılır. New York Bridal Fashion Bridal 2025-də korset gəlinlikləri hər yerdə idi! Biz 2025-ci ildə bu üslubların çoxunu görəcəyik. Keçmiş mövsümlərdən fərqli olaraq, bu donlarda axan ətəklər və qadın krujevaları üzərində strukturlaşdırılmış korsetlər var. Bu tendensiya Bridgerton seriyasından ilhamlanıb. Lakin müasir parçalar və texnikalar sayəsində həm daha rahat, həm də qəşəngdir.

## Yunan tanrılarından ilhamlanan pərdələr

Heykəltəraş örtülü parçalar bu mövsümün sevimli modasıdır. Xüsusilə belə və bədən formasına uyğun kəsiklərdə bu detal önə çıxır. Zamansız və bədii duruş axtaranlar üçün mükəmməldir!



## Qış gəlinləri üçün

Qış toyları üçün üslubunuzdan güzəştə getməyinizə ehtiyac yoxdur. Barselonadakı podiumlarda qış elementi çox ön planda idi. Yolancris krujeva ilə işlənmiş palto, Isabel Sanchis isə axan ətəklərlə birləşdirmək üçün daha qısa pencək hazırladı.

## Şişkin və şahzadə gəlinlikləri

2025-ci ilin gəlinlik trendlərinin diqqət çəkən məqamları arasında böyük toylara uyğun şişkin və şahzadə üslubları var.

## Şəffaf detallar

Gəlinliklərdəki şəffaf detallar 2025-ci ildə yeni zəriflik anlayışı yaradır. Xüsusilə ətək, yaxalıq və qol nahiyələrində görünən tül və orqanza toxumaları həm cəsur, həm də zərif bir görünüş təmin edir.

## Gözlənilməz rənglər

Gəlinlik kolleksiyalarında podiumlar adətən ağ rəngdədir, lakin bu mövsüm müxtəlif rənglərə hücum etdi. Gah qara, gah da krem rəngli gəlinliklər gördük. Pastel və canlı tonlar bir çox dizayna romantizm əlavə etdi.

## Aşağı bel və uzun vurğu

Son mövsümlərdə artan aşağı belli gəlinliklər 2025-ci ildə də populyarlığını qoruyacaq kimi görünür. Uzun xəttli korsetlər gəlinlərə zərif və müasir siluet təqdim edir. Aşağı bellər gövdəni uzadır, qəşəng bir fiqur yaradır.

Gəlin deyəndə ağlınıza gələn üç şey: payetlər, kristallar və krujeva

## Parıldamaq, daşlar

Yeni nəsil parıldamaq daha yumşaq və zərif görünür. Krujevanın canlanması tam sürətlə davam edir.

## Aslanlıqla iki fərqli görünüş

Yalnız bir gəlinlik geyinmək fikri keçmişdə qaldı. Bir çox dizaynerlər gəlinlərin həm mərasimdə, həm də toydan sonra fərqli görünüşə sahib olmasına imkan vermək üçün çıxarıla bilən ətəklərdən və ya dəyişdirilə bilən detallardan istifadə edirlər. İstər mərasim, istərsə də şənlikdən sonra gəlinlər üçün bir çox variant var.

## Qalın arxa detallar

2025-ci ildə gəlinlər kürəksiz modellərlə cəsarətli və seksual görünüş nümayiş etdirə bilərlər. Aşağı arxa, dərin V kəsik və ya tamamilə açıq arxa kimi müxtəlif variantlar var.

## Minimalist dizaynlar

Minimalist dizaynlar klassik və zamansız görünüşə üstünlük verən gəlinlər üçün ideal seçimdir. Düz kəsim, sadə detallar və keyfiyyətli parçalar bu stil gəlinliklərin əsas xüsusiyyətləridir. Minimalizm 2025-ci ildə toylarda güclü tendensiya olaraq qalmağa davam edəcək. Gəlinlər zərif xətləri və minimalist dizaynı olan gəlinlikləri seçəcəklər.

## Midi uzun gəlinliklər

Midi uzunluqlu gəlinliklər ənənəvi uzun gəlinliklərə alternativ olaraq son illərdə çox populyarlaşıb. Dizdən aşağı bitən bu gəlinliklər həm zərif, həm də rahat bir görünüş təqdim edərək, gəlin namizədlərinin fərqli tərzlərini əks etdirməsinə imkan verir.

## İki parça gəlinlik

Gəlinlik dedikdə ilk ağıla qabarıq ətəklər və uzun qatlar gəlir, lakin son illərdə şalvarlı gəlinliklər daha rahat və müasir bir alternativ olaraq gəlin namizədləri arasında böyük marağa səbəb olur. Klassiklərdən kənara çıxmaq və öz üslubunu əks etdirmək istəyənlər üçün mükəmməl seçim olan şalvarlı gəlinliklər də İspaniya podiumunda olub.

İki parçalı gəlinlik modelləri müasir gəlin namizədləri üçün həm rahatlıq, həm də zəriflik təqdim edən yenilikçi bir alternativdir. Fərqli üst və ətək/şalvar kombinasiyaları ilə şəxsi üslubunuzu əks etdirməyə imkan verən bu modellər, ənənəvi gəlinlik konseptindən kənara çıxaraq orijinal görünüş yaratmağa imkan verir. İstər romantik krujeva, istərsə də sadə və minimalist kəsiklər olsun, iki parçalı gəlinliklər həm toy, həm də toydan sonrakı partiyalar üçün seçimdir. İki parçalı gəlinliklərin təklif etdiyi üslub və rahatlıq üstünlüklərini kəşf edin.

Gəlinlik modasında getdikcə populyarlıq qazanan iki parçalı gəlinlik modelləri həm zəriflik, həm də funksionallıq təqdim edən müasir dizaynlar arasındadır. Üst və ətəklərinin ayrı-ayrılıqda dizayn edildiyi bu gəlinliklər gəlinlərə klassik gəlinliklərdən fərqlənərək şəxsi üslublarını əks etdirmə fürsəti təqdim edir. İki parçalı gəlinliklər toy gününüzdə rahat və dəbli görünüş təqdim edərək müasir və orijinal üslub axtaran gəlinlər üçün ideal seçimdir. İki parçalı gəlinlik modelləri təqdim etdikləri rahatlıq və kombinasiya imkanları ilə diqqət çəkir.

Gəlinlik paltarının üst və ətəyi ayrıca seçmək imkanı gəlinlərə öz üslubunu yaratmaq azadlığı verir. Məsələn, crop top stil top və geniş ətək seçərək müasir və cəsarətli görünüş əldə edə bilərsiniz. Krujeva ilə işlənmiş üst və sadə yubka romantik və zərif bir atmosfer yaradır; Daha düz kəsilmiş ətəklər minimalist üslub axtaran gəlinlər üçün idealdır.

## Qara gəlinliklər

*Klassiklərdən kənar bir seçim*



Ağ gəlinliklər ənənəvi seçim olsa da, son illərdə qara gəlinliklər getdikcə populyarlaşır. Qara gəlinliyə üstünlük verənlər klassiklərdən kənara çıxan və öz üslubunu əks etdirən orijinal və diqqəti çəkən görünüş əldə edə bilərlər.

***Ayşən Vəli***

# NATO-nun Tramp qorxusu

## *Şimali Atlantika Alyansı müdafiə yollarını axtarır*

NATO xarici işlər nazirləri Ukrayna böhranı və alyansın təhlükəsizlik prioritetlərini müzakirə etmək üçün Brüsseldə iki günlük toplantı keçirəcək. Qərb müttəfiqləri arasında aparılan danışıqlar bütün tarixində alyansın birliyinə ən ciddi təhlükəyə çevrilmiş ABŞ-ın yeni administrasiyası ilə münaqişəni yumşaltmaq məqsədi daşıyır. Ukraynanın NATO-ya üzvlüyündən tutmuş müdafiə xərclərinə və Qrenlandiyanın gələcəyinə qədər bir çox əsas məsələlərdə fikir ayrılığına düşərək, alyans üzvləri ABŞ-ın NATO-dan çıxmasından qorxaraq, kollektiv fəaliyyəti davam etdirmək və NATO-nun dağılmasının qarşısını almaq yollarını axtarırlar. Donald Trampın rəhbərlik etdiyi yeni ABŞ administrasiyası alyans tarixində NATO birliyinə ən ciddi təhlükə olub. ABŞ-ın dövlət katibi Marko Rubionun da iştirak edəcəyi Brüsseldə NATO xarici işlər nazirlərinin görüşü aprelin 3-də başlayacaq və NATO üzvləri arasında alyansın gələcəyi ilə bağlı artan narahatlıq fonunda baş tutacaq. NATO-ya qarşı tənqidi münasibəti ilə tanınan prezident Trampın Vaşinqtonda hakimiyyətə gəlməsindən sonra Qərb müttəfiqləri arasında qarşılıqlı fəaliyyət perspektivləri getdikcə qeyri-müəyyənləşir. Onun müttəfiqlərini çaşqınlığa sürükləyən son addımı aprelin 2-də nazirlərin Brüssel görüşü ərəfəsində Metyu Uitakerin ABŞ-ın NATO-dakı daimi nümayəndəsi kimi təsdiqlənməsini elan etməsi oldu.

Əvvəllər qısa müddət ərzində ABŞ Baş prokuroru vəzifəsində çalışmış cənab Uitakerin xarici və müdafiə siyasətində təcrübəsi sıfırdır. Alyans üçün kritik məqamda Brüsseldə yüksək vəzifəyə siyasi neofitin təyin edilməsi prezident Trampın NATO ilə münasibətlərindəki məqsədləri ilə bağlı yeni suallar doğurub. Bununla belə, Qərb müttəfiqləri üçün əsas zərbə Vaşinqtonun bir sıra ölkələrə, o cümlədən Avropa dövlətlərinə ticarət tarifləri tətbiq etmək qərarı oldu. Tarif elanı aprelin 2-də Ağ Evdə keçiriləcək mərasimdə planlaşdırılıb, katib Rubio artıq Brüsseldədir. Ticarət məsələlərinin birbaşa NATO hərbi-siyasi alyansının gündəliyində olmamasına baxmayaraq, Avropa artıq açıq şəkildə bəyan edib ki, ABŞ administrasiyasının hərəkətləri onilliklər ərzində qurulmuş əvvəlki münasibətləri məhv edir. Polşanın baş naziri Donald Tusk videomüraciətində prezident Trampa müraciət edərək, "Bizim Avropa-Amerikanın birgə maraqlarına cavab veririk, daha güclü bizim, daha güclü Aİ və daha güclü NATO-ya sahib olmaqdır, daha zəif deyil. Cənab prezident və əziz amerikalı dostlar, ən yaxın müttəfiqlərinizə tariflər tətbiq etməzdən əvvəl bunu düşünün. Əməkdaşlıq həmişə qarşıdurmadan yaxşıdır", deyə Polşa baş naziri xəbərdarlıq edib.

Vaşinqtonun aqressiv ticarət siyasətinin və onun ABŞ ərazisini genişləndirmək planlarının ABŞ-ın müttəfiqləri ilə hərbi-texniki əməkdaşlığına təsiri problemi The New York Times tərəfindən araşdırılıb. Nəşr qeyd edir ki, Vaşinqtonda etimadın itirilməsi ənənəvi əməkdaşlıq formatlarına yenidən baxılması prosesinə start verib. Beləliklə, Kanada Avstraliya ilə erkən xəbərdarlıq radar sisteminin yaradılması üçün 4,2 milyard dollarlıq razılaşmaya razılaşıb və Vaşinqtonla koordinasiya etmədən Aİ ilə hərbi islahatlar planlarını müzakirə edir. Öz növbəsində, NATO-ya üzv olan bir sıra Avropa ölkələri Amerikanın F-35 qırıcıları almaq planlarına yenidən baxır, Polşa, Cənubi Koreya və Avstraliya nüvə silahına çıxış məsələsini müzakirə edirlər.

NATO nazirlərinin Brüssel toplantısının intriqalarından biri də dövlət katibi Rubionun Qrenlandiya ilə bağlı artan gərginliyi aradan qaldırmaq üçün kənarda Danimarka xarici işlər naziri Lars L?kke Rasmussenlə görüşübgörməyəcəyi sualı olacaq. Financial Times-ın məlumatına görə, Kopenhagen və Vaşinqton arasında münasibətlərin gərginləşməsinin yeni raundu səbəbindən görüşün keçirilməsi şübhə altındadır. Brüsseldəki danışıqlar ərəfəsində Danimarka Xarici İşlər Nazirliyinin rəhbəri amerikalılara müraciət edərək, ABŞ-ın vitse-prezidenti J.D.Vansın Kopenhagenlə bağlı ABŞ-ın Qrenlandiyaya iddialarını təsdiqləyən tənqidi bəyanatlarını pisləyib.




### İsveçrə NATO ilə sıx əməkdaşlıq etmək istəyir

Digər mübahisə mövzusu Ukraynanın NATO-ya üzvlüyü məsələsi olaraq qalır, prezident Tramp buna qəti etiraz edir, bunu bir sıra Avropa dövlətləri və alyansın rəhbərliyi haqqında demək mümkün deyil. Donald Trampın martın 31-də dediyi kimi, o, qəti şəkildə Ukraynanın NATO-ya qəbul edilməsinin əleyhinədir və Vaşinqtonu bu mövqeyinə yenidən baxmağa inandırmaq cəhdlərinin qarşısını alacaq. "Görürəm ki, Zelenski nadir qiymətli metallarla bağlı müqavilənin şərtlərini dəyişdirməyə çalışıb. Jurnalistlərdən onun NATO-ya üzvlük və ya buna bənzər bir sövdələşməyə hazır olduğunu eşitmişəm. Bu, heç vaxt olmayacaq", - ABŞ prezidenti Ağ Evdə jurnalistləri əmin edib.

Prezident Trampın yanaşması Vaşinqton və onun avropalı müttəfiqləri arasında balans yaratmağa çalışan Alyansın baş katibi Mark Ruttenin mövqeyindən kəskin şəkildə fərqlənir. Donald Trampla Ukraynanın "gələcək sülh sazişinin bir hissəsi kimi" alyansa üzv olmayacağı ilə razılaşan Mark Rutte gələcəkdə belə bir ehtimalın olduğunu etiraf edir. NATO-nun baş katibi martın 28-də Varşava İqtisadiyyat Məktəbində çıxışı zamanı deyib: "Amerikalılar Ukraynanın sülh sazişinin bir hissəsi kimi NATO-ya üzv olmamalı olduğunu söylədilər, lakin bu, əlbəttə ki, uzunmüddətli perspektivdə nələrin baş verəcəyinə aid deyil".

### NATO-nun baş katibi Trampla necə görüşdü?

O, əslində Trampla yanaşı oynadı, onun hərbi xərclərlə bağlı siyasətini dəstəklədi. ABŞ prezidenti dəfələrlə Avropanı NATO-nun müdafiə qabiliyyətinə verdiyi aşağı töhfəyə görə tənqid etdi və bütün üzv dövlətlərdən müdafiə xərclərini ÜDM-in 5%-ə çatdırmağı tələb etdi. "Prezident Trampın indi etdiyi şey doğrudur. O, Avropa dövlətlərinə təzyiq edir ki, müdafiə xərclərini artırsınlar və öz təhlükəsizlikləri üçün daha çox məsuliyyət götürsünlər", - deyə cənab Stubb izah edib. Finlandiya prezidentindən fərqli olaraq, onunla heç vaxt ortaq dil tapmayan Avropa diplomatiyasının rəhbəri Kaja Kallas Mundo qəzetinə müsahibəsində müttəfiqlərini Trampın hakimiyyəti dövründə sağ qalmağa çağırıb. "Mən əminəm ki, bu baş verəcək. Bu, güclü ittifaqdır" deyə xanım Kallas əmin edib.

### Trampın "Azadlıq Günü"

Donald Tramp ABŞ-ın tarif siyasəti ilə bağlı bəyanatı verəcək. O, bu günü "Azadlıq Günü" adlandırıb. Dünya mediası mümkün yeni tariflərin təfərrüatlarını xəbər verir və digər ölkələrin cavablarının nə ola biləcəyini anlamağa çalışır.

### Bloomberg (Nyu-York, ABŞ)

*Trampın tarif planları hələ də naməlum vəziyyətdədir*

İki səviyyəli konsepsiyaya əsasən, ən yüksək tariflər həm idxal rüsumlarının özləri, həm də Amerika idxalını məhdudlaşdırmaq üçün asanlıqla hesablanan digər tədbirlər baxımından ən böyük günahkar hesab edilən ölkələrə tətbiq ediləcək. Tramp administrasiyası artıq bu həftə Aİ, Yaponiya, Hindistan və Kanadanın ticarət siyasətlərindən şikayət edib.

### The Wall Street Journal (Nyu York, ABŞ)

*Trampın yeni tarifləri limitlərə çatır, fond indeksləri aşağı düşür*

"Azadlıq günü" yaxınlaşdıqca qlobal investorlar cavab tədbirləri gözləyirlər (Trampın hərəkətlərinə-Kommersant)... Tarif qarşıdurması artıq mümkün iqtisadi yavaşlama ilə bağlı narahatlıqları artırır. Bu, öz növbəsində, kiçik biznes səhmlərinin satışına gətirib çıxardı və eyni zamanda ABŞ Xəzinədarlığının 10 illik gəlirlilik yayılmasını rekord səviyyələrə çatdırdı.

### The Economist (London, Böyük Britaniya)

*Trampın "Azadlıq Günü" Amerika iqtisadiyyatını sarsıdacaq*

Prezident Amerika üçün "Emancipation Günü"nü qeyd edəcəklərini vəd etdi ki, bu, ölkənin son onilliklərdə itirdiyinə inandığı hörməti və pulu qaytarmağa başladığı zaman dönüş nöqtəsidir. Reallıqda heç bir azadlıq gözləmək lazım deyil. Ağ Evə qayıtdıqdan sonra iki ay ərzində cənab Tramp ümumi tarifləri II Dünya Müharibəsindən bəri ən yüksək səviyyəyə qaldıraraq, ölkəni daha yavaş iqtisadi artım, yüksək inflyasiya, daha böyük bərabərsizlik və çox güman ki, maliyyə problemləri üçün şərait yaratdı.

### Nikkei (Tokio, Yaponiya)

*Çin hazırlaşır, Asiyada Trampın ticarət müharibəsi "Azadlıq Günü" gəlir*

Çin gözlənilən nəticələr qarşısında dayanır, çünki... Donald Tramp... yeni tarifləri açıqlamağa hazırlaşır, Pekinin gücünü sınayır... Çinin zərbəni yumşaltmaq üçün çoxlu alətləri var - daha da monetar yumşaltmaq, ev təsərrüfatlarının istehlakını artırmaq üçün fiskal stimul paketləri və özəl sərmayələri boğan sərt tənzimləyici qadağaların aradan qaldırılması.

### Le Figaro (Paris, Fransa)

*"Azadlıq Günü": Donald Trump dünyanın qalan hissəsinə tariflər tətbiq edərək tətil etməyə hazırlaşır*

Sevimli ifadəsi "gömrük rüsumları" olan Amerika prezidenti... ABŞ-a idxal olunan mallara sərt rüsumların tətbiqini elan edəcək. Seçilən məkan, Ağ Evin Qızılgül bağı və bütün hökumətin iştirakı "Amerikanı yenidən zənginləşdirin" adlı bu konfransla Donald Trampın düşündüyü və bütün dünya ilə acı ticarət müharibəsinə əsaslanan inqilabın başlanğıcını qeyd etmək üçün nəzərdə tutulub.

### Der Spiegel (Hamburq, Almaniya)

*Trampın tariflərə aludə olması hətta özü üçün də təhlükəlidir*

Xüsusilə narahat edən... odur ki, Tramp... özünü açıq-aydın məsum hesab edir... Görünür, başqa fikirlərə heç qulaq asmır... Tramp tərəfdarları, məsələn, Tesla-nın baş direktoru İlon Mask vəziyyəti daha da pisləşdirir. Onlar prezidentin onun səhvsizliyinə inamını gücləndirirlər... Amma son nəticədə Trampın tarif siyasətlərini və onların nəticələrini bəyənibbəyənməmələrinə qərar verəcək Amerika seçiciləri olacaq. Növbəti Konqresə seçkilərə cəmi iki il qalır.

**V.VƏLİYEV**

# Siqnal mədəniyyət göstəricisidir: “Adə, Ələsgər!”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması “ istiqaməti çərçivəsində hazırlanıb*

Hər səhər işə başlamazdan əvvəl redaksiyakı iş otağımızı havalandırmaq, axşamdan bağlı qalan otağın havasını təmiz hava ilə dəyişmək istəyirik. Pəncərəni açmağımıza peşman oluruq, maşın siqnalları insanı kar edə biləcək dərəcədə çox olur. Kor-peşman pəncərəni bağlayıb kondisioneri qoşuruq. Məsələn, elə bu yazını yazarkən də pəncərəmiz bağlı, kondisionerimiz işlək vəziyyətdədir, hava kifayət qədər sərin olmasına baxmayaraq, biz bayırdan təmiz hava qəbul etmək yerinə kondisioner havası qəbul edirik. Redaksiyamızın yerləşdiyi küçədən keçən maşınlar sözləşmiş







kimi hamısı eyni vaxtda siqnal basırlar. Əslində, bu tək bizim yox, bütün iş yerlərinin, evlərin - bütün insanların problemidir. Küçədə siqnalı dayanmadan basıb evə gələndə səs-küydən balkona çıxa bilmədiyindən şikayətlənən vətəndaş, elə sənin də problemindir.

Maraqlıdır, avtomobili olanlar, avtomobil idarə edənlərin hamısı siqnal vermək məcburiyyəti və qadağası olan vəziyyətləri bilirmi? Maşının siqnalını basmaq üçün saysız-hesabsız bəhanələr tapanlar bunu etməmələri lazım olduğunu bilmirlər? Onlar ətrafdakıları nə qədər narahat etdiyini dərk etmirmi? Yaratdıqları səs-küyün, narahatlığın insan sağlamlığına mənfi təsir edəcəyini düşünmürmü?





### Həm səbirsizdir, həm də mədəniyyətsiz...

Problem həm də ikibaşlıdır. Yəni, həm siqnal mədəniyyətsizliyi var, həm də qanunsuzluq. 1-cisi odur ki, avtomobildə quraşdırılmış siqnaldan qadağan olan ərazilərdə lazım olmadığı hallarda basan çox sayda sürücü var. 2-ci hal isə odur ki, həm lazım olmadığı halda siqnal basan, həm də qanunla qadağan edilmiş standartdan kənar siqnal quraşdırıb basan var. Problemin hər ikisi narahatlıq yaradır.

Həm yollarda, həm də yaşayış məntəqələrində gərginliyə səbəb olan siqnal mədəniyyətsizliyi qanunla hər hansı bir formada cəzalandırılırmı? Azərbaycanda yol hərəkəti haqqında qəbul edilmiş qaydalara görə yaşayış məntəqələrində sürücülər siqnaldan yalnız yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün istifadə edə bilər. Bu halda səs siqnalı başqa hərəkət iştirakçılarının diqqətini cəlb etmək, onları daha diqqətli olmağa səsləmək funksiyasını oynayır. Yaşayış məntəqəsindən kənarda səs siqnalı əlavə olaraq ötmə niyyəti haqqında başqa sürücüləri xəbərdar etmək üçün zəruri olan hallarda verilə bilər. Deməli, sürücü, yaşayış məntəqəsində yalnız qəza halının qarşısını almaq üçün, yaşayış məntəqəsindən kənarda həm qəza halının qarşısını almaq üçün, həm də ötmə barədə başqa sürücülərə məlumat vermək üçün siqnala basa bilər.

Maraqlıdır, bunu ölkəmizdə sürücülük vəsiqəsi olan nə qədər adam bilir? Yaxud, 3.26 nömrəli nişanı nə qədər sürücü tanıyır? Bu nişanın mənasının ”səs siqnalı vermək qadağandır” olduğunu bilən neçə sürücü var?

Yəqin maraqlıdır, sürücülər siqnaldan niyə bu qədər istifadə edir?

Birincisi, bu, bir növ salamlaşma üsuludur. Yolda, küçədə, hansısa evin qarşısından keçəndə, hansısa obyektin, iş yerinin qabağında dostunu-tanışını görəndə siqnalın üstünə çıxan sürücülər bununla tanışına salam vermiş olur.

İkincisi, işıqforda dayanan qabaqdakı sürücünü tələsdirmək məqsədi ilə verilir. İşıqfor qabaqdadır, sağdadır, hamının görüdüyü hündürlükdə və böyüklükdədir. Əgər arxadakı sürücü onun hələ də qırmızı olduğunu görürsə, israrla yenə siqnal verirsə və bu cür insanlar paytaxtımızda minlərlədir, o zaman o, üzr istəyirəm, mədəniyyətsizin lap böyüyüdür.

Üçüncüsü, yol istəmək məqsədi ilə dayanmadan siqnal verənlər də var. Yol, məhdudiyyətli görmə zonasıdır, qarşında 50 metr məsafəni görürsən və qaydalara görə belə olan halda ötmə əməliyyatı icra etmək olmaz. Arxadakı avtomobilin sürücüsü bu yol şəraitini gördüyü halda israrla sizdən yol istəyir. Bu israrının səbəbi də mənzil başına 2 dəqiqə daha tez çatmaqdır. Mənzilə çatmaq yerinə qəzaya düşənlərin sayı qəza statistikasında özünü göstərir.

Dördüncüsü, çoxmərtəbəli binanın həyətində avtomobildə gözləyib yuxarı mərtəbədəki yaxınını, ailə üzvünü tələsdirmək məqsədi ilə siqnal verənlər də var. Belə hallarda telefon zəngi, mesaj kimi ünsiyyət yolları yerinə başqalarının rahatlığını pozaraq siqnal vermək necə, mədəniyyətli adam işidir?

### İt, pişik, uzunqulaq səsi çıxaran siqnallar

Avtomobil siqnalları ilə bağlı başqa bir böyük problem də bəzi şəxslərin öz avtomobillərinə standartlardan kənar siqnallar quraşdırması və ondan istifadəsi ilə bağlıdır. Belə ki, avtomobilinə ip-pişik səsi, filmlərdən frazalar, fərqli səslər quraşdırıb siqnal kimi istifadə edənlər də çoxdur. Bu da başqalarının rahatlığını pozmaqla yanaşı, olduqca qeyri-mədəni davranışdır və kobud qayda pozuntusudur.

Qeyd edək ki, nəqliyyat vasitələrinin hər biri üçün xüsusi səs standartı var. Bu standartlar qanunla tənzimlənir, siqnalın səsi və gücü müəyyənləşdirilir. Siqnal bir tipli olmalı, avazı dəyişməməlidir. Buna monofonik səs sistemi deyilir. Qanunlarımız polifonik, yəni birdən çox avazdan, səsdən istifadə edilən siqnalların quraşdırılmasını qadağan edir. Polifonik səs siqanlı yalnız operativ nəqliyyat vasitələrində quraşdırılır.

Operativ nəqliyyat vasitələri - yanğından mühafizə, polis, təcili tibbi yardım, qəza-xilasetmə bölmələrinin, hərbi avtomobil müfəttişliyinin funksional tapşırıqlarının yerinə yetirilməsi, pul mədaxilinin inkassasiyası və qiymətli yüklərin daşınması, Azərbaycan Respublikasının ali vəzifəli şəxslərinin mühafizəsi vəzifələrinin icrası üçün nəzərdə tutulan, Milli operatora məxsus olan və poçtun daşınmasında istifadə edilən, üstündə xüsusi qrafikalı rəngli sxemlər, yazılar və tanınma nişanları olan, xüsusi işıq və səs siqnalları ilə təchiz edilmiş avtomobillərdir.

Qeyd edək ki, hətta operativ nəqliyyat vasitələrinə qoyulan xüsusi çoxavazlı səs siqnallarının da konkret standartı olur. Bu standartlarda həm səsinin icazə verilən maksimum gücü təyin edilir, həm də sirenanın tipi nəzərdə tutulur.

Qanunlar səs siqnalı vermə qaydalarını pozmaya görə cərimə tətbiq edir. İnzibati Xətalar Məcəlləsinin 151-2.2-ci maddəsi nəqliyyat vasitəsində mövcud olan standarta uyğun səs siqnalından qaydaları pozmaqla istifadəyə görə, yəni yaşayış məntəqəsində qəza halından başqa siqnal verərsə, yaşayış məntəqəsindən kənarda isə həm bu hala, həm də zəruriliyi məcbur olduqda ötmə halından başqa digər hallarda siqnal verərsə sürücü 30 manat cərimə edilir.

Əgər digər formada qanun pozularsa, yəni avtomobilə standartdan kənar siqnal quraşdırılarsa o zaman sürücünü İXM-in 155.7-ci maddəsinə əsasən, 500 manatdan 800 manatadək cərimə gözləyir. Cərimənin tətbiqindən sonra siqnal sökülərək müsadirə edilməlidir. Əgər yerində sökmək mümkün deyilsə, o zaman avtomobil cərimə meydançasına göndərilir. Orada siqnal söküldükdən sonra avtomobil sahibinə geri qaytarılır.

Siqnal mədəniyyətdir, sürücünün ən əvvəl özünə, sonra yaxınlarına, daha sonra da çevrəyə, mühitə, insanlara göstərdiyi mədəniyyət. Hər birimiz yaxşı bilirik yollarda lazımsız siqnal basanlara qarşı münasibəti, edilən həqarətləri, söyülən söyüşləri. Dəyərmi?

**Lalə Mehralı**

SON SƏHİFƏ

# SƏS

4 aprel
2025-ci il

# Repetitor yanına getmək dəbə çevrilib?



*EKSPERT DANIŞDI*

"Son illər Azərbaycanda müşahidə edilən təhsilə yanaşmada diqqətçəkən dəyişikliklərdən biri də repetitorluğa olan münasibətin məzmununun tamamilə dəyişməsidir. Repetitor yanına getmək əvvəllər bilik boşluğunun doldurulması, imtahanlara daha effektiv hazırlaşmaq məqsədi daşıyırdısa, bu gün bir çox ailələrdə bu proses sadəcə sosial status nümayişinə çevrilib. Uşaq məktəbdə kifayət qədər yaxşı oxusa da, heç bir ciddi ehtiyac yoxdursa belə, valideyn "hamı göndərir, mənim uşağım niyə geri qalsın" psixologiyası ilə onu repetitor yanına aparır. Bəzən bu addım sırf "biz də hazırlıqdayıq" demək üçün atılır". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: "Bu, ilk baxışdan zərərsiz bir "trend" kimi görünsə də, əslində ciddi mənfi nəticələr doğurur. İlk olaraq bu yanaşma məktəbin əsas funksiyasını - təhsil vermək və şagirdi formalaşdırmaq funksiyasını zəiflədir. Şagird artıq məktəbi yox, repetitoru əsas sayır. Dərsdə diqqətsiz olur, tapşırıqları etinasız yerinə yetirir, çünki düşünür ki, əsas bilik qaynağı onsuz da məktəb deyil. Nəticədə məktəb müəllimi, xüsusilə də fənn müəllimi nüfuzunu itirir, özünü ikinci dərəcəli hiss edir. Sinifdə təlim-tərbiyə prosesi pozulur, pedaqoji məqsədlər arxa plana keçir.

Digər ciddi məsələ bu tendensiyanın psixoloji və sosial təsirləridir. Şagirdin istək və marağı nəzərə alınmadan repetitor yanına göndərilməsi onda təzyiq, yorğunluq və həftə təhsilə qarşı ikrah hissi yaradır. Uşaq evməktəb-repetitor marşrutunda fiziki və zehni olaraq əzilir. Onun oyun oynamaq, istirahət etmək, sosiallaşmaq üçün vaxtı olmur. Bu isə uşaqlıq çağının təbii inkişaf mərhələsinin pozulması deməkdir. ABŞ və Finlandiya kimi ölkələrdə aparılan tədqiqatlar göstərir ki, artıq yüklənmə uşaqlarda erkən yaşda tükənmişlik sindromuna səbəb ola bilər. Yəni, uşaq öyrənməkdən bezir və bu bezginlik həyat boyu davam edir.

Digər tərəfdən, repetitorluğun bu cür "dəblə" yayılması ailələr üçün ciddi maliyyə yükünə çevrilib. Azərbaycanda bir repetitorun aylıq qiyməti orta hesabla 100-300 manat arasında dəyişir. Hər fəndən ayrıca hazırlığa gedən bir şagird üçün bu rəqəm ayda 500-600 manat civarına qalxa bilir. Ailə büdcəsinin mühüm hissəsi bu prosesi davam etdirməyə sərf olunur. Əgər evdə bir neçə məktəbli varsa, bu yük daha da artır. Maraqlıdır ki, bəzən bu xərclər heç bir real nəticə vermir. Sadəcə o "biz də hazırlıqa gedirik" imici qorunur. Halbuki həmin məbləğlə uşaq üçün kitablar, əlavə dərs vəsaitləri, psixoloji dəstək və ya inkişafetdirici kurslar alınması daha effektiv ola bilərdi.

Repetitorluğun bu şəkildə yayılması təhsil sistemində statistik göstəricilərə də təsir göstərməkdədir. 2004-cü ildə qəbul imtahanında iştirak edənlər arasında apardığım sorğunun məlumatına əsasən, ali məktəbə yüksək balla qəbul olunan abituriyentlərin 98%-i məktəbə paralel olaraq repetitor yanına getmişdir. Bu isə göstərir ki, məktəb təkbaşına imtahan hazırlığı üçün artıq effektiv sayılmır. Bu yanaşma məktəbin missiyasını kölgədə qoyur. Halbuki inkişaf etmiş ölkələrdə - xüsusilə Finlandiya, Estoniya və Yaponiya kimi təhsil sistemində nüfuzlu ölkələrdə - repetitorluq ancaq xüsusi hallarda tətbiq olunur və heç vaxt əsas təhsil forması kimi qəbul edilmir. Orada məktəbdəki müəllim və dərs prosesi uşağın əsas bilik mənbəyi kimi qiymətləndirilir. Bu gedişat davam edərsə, məktəb formal bir müəssisəyə çevriləcək - yalnız sənəd, qiymət və iştirak üçün orada olacaqlar. Əsas təhsil isə məktəbdən kənarda, paralel bir sistemdə - repetitor evlərində davam edəcək. Bu isə ölkədə təhsil sisteminin bütövlüyünü parçalayır, müəllim peşəsinin nüfuzunu sarsıdır, sosial bərabərliyi pozur. Çünki repetitor imkanından yalnız müəyyən maliyyə imkanları olan ailələr yararlana bilir.

Sonda belə çıxır ki, dəbə uyğunlaşmaq naminə atılan bu addımlar nə uşağın psixoloji sağlamlığına, nə təhsilin keyfiyyətinə, nə də cəmiyyətin gələcəyinə xidmət edir. Təhsili dəb deyil, ehtiyac və hədəf yönəldməlidir. Repetitor yanına getmək uğura aparan yol yox, məktəbə olan etimadsızlığın əlamətidir. Həmin etimadı bərpa etmədikcə, nə repetitorlar, nə qiymətlər, nə də dəblər bizi real uğura aparmayacaq".

*Ayşən Vəli*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# İyunda 13 gün iş olmayacaq



**İyun ayında 13 gün iş olmayacaq. Belə ki, təqvimə əsasən, 6-7 iyun Qurban bayramı, 15 iyun Milli Qurtuluş Günü, 26 iyun isə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür.**

Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin qərarlarına uyğun olaraq, iyunun 7-si şənbə gününə təsadüf etdiyindən beşgünlük iş həftəsində iyunun 9-u da qeyri-iş günü hesab ediləcək. Beləliklə, Qurban bayramı ilə əlaqədar 6,7,8 və 9 iyunda iş olmayacaq. Eyni zamanda 15 iyun bazar gününə təsadüf etdiyinə görə 16 iyun da qeyri-iş günü olacaq.




# İspaniya Kubokunda "El Klassiko" olacaq

İspaniya kubokunda 2-ci finalçının da adına aydınlıq gəlib. Yarımfinalın cavab görüşləri çərçivəsində "Barselona" səfərdə "Atletiko" ilə qarşılaşıb və qələbə qazanıb. Hans-Diter Flikin kollektivi ilk oyunda 4:4 hesablı heç-heçəyə razılaşmışdı. Bununla da Kataloniya klubu ümumilikdə 5:4 hesabı ilə qalib gələrək finala adlayıb. "Barselona" həlledici matçda Madrid "Real"ına rəqib olub.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700